RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 24 (8340) ÇƏRŞƏNBƏ, 5 fevral 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az




# Tarixin ən güclü Azərbaycanını yaradan siyasət

## İlham Əliyev: “Əsas məqsəd dövlətimizin möhkəmlənməsi, xalqımızın daha yaxşı yaşaması, sabitliyin təmin edilməsidir”

**2019-cu il ölkəmiz üçün iqtisadi sahədə müsbət göstəricilərlə yadda qaldı. 2016-cı ildən başlanan yeni iqtisadi islahatların nəticələri özünü ötən il daha geniş miqyasda göstərdi. Prezident İlham Əliyev tərəfindən irəli sürülən təşəbbüslər, qeyri-neft sektorunun inkişafını sürətləndirən islahatlar iqtisadiyyatda nailiyyətlərin əldə olunmasını, makroiqtisadi sabitliyin möhkəmləndirilməsini və tarazlı iqtisadi inkişafı təmin etdi.**

### 16 ilin hesabatı

Regionların 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının birinci ilinə həsr olunan konfransda bu barədə geniş bəhs edildi. Amma öncə onu qeyd edək ki, konfrans dördüncü dövlət proqramının birinci ilinin yekunları ilə bağlı olsa da, əslində, son 16 ilin sosial-iqtisadi inkişafının hesabatı verildi. Qeyd edək ki, əvvəlki üç proqram Azərbaycanın yalnız bölgələrinin deyil, bütünlüklə ölkənin sosial-iqtisadi inkişafının lokomotivi olaraq real nəticələrlə başa çatıb. Həmin sənədlərdə nəzərdə tutulmuş vəzifələrin yerinə yetirilməsi nəticəsində ölkədə qeyri-neft sektorunun davamlı inkişafı, yeni müəssisələrin və iş yerlərinin yaradılması, regionlarda, eləcə də ölkə paytaxtında kommunal xidmət və sosial infrastruktur təminatının həcminin və keyfiyyətinin yüksəldilməsi, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılması, əhalinin məşğulluq səviyyəsinin artırılması, yoxsulluğun azaldılması sahəsində əhəmiyyətli nailiyyətlər əldə olunub.

Bu gün zaman göstərir ki, İlham Əliyev 2004-cü ildən başlayaraq dövlət proqramlarını təsdiq etməklə çox böyük uzaqgörənlik edib. Çünki onların nəticəsində Azərbaycanın imkanlarından səmərəli istifadə olunub, bütün iqtisadi potensial hərəkətə gətirilib ki, bunun da uğurlu nəticələri göz önündədir. Ümumi daxili məhsulun dəfələrlə artımı, qeyri-neft sektorunda, o cümlədən qeyri-neft sənayesində qürurdoğuran yüksəliş baş verib, Azərbaycan əlverişli biznes mühitinə görə dünyanın ən qabaqcıl dövlətinə çevrilib.

Onu da qeyd edək ki Prezidentin bölgələrə mütəmadi səfərləri və bu səfərlərin nəticəsi olaraq imzaladığı sərəncamlar dövlət proqramlarının icrasını sürətləndirməklə, regionların tarazlı inkişafının təmin edilməsi, infrastruktur təminatının yaxşılaşdırılması, yeni iş yerlərinin yaradılması və əhalinin həyat səviyyəsinin daha da yüksəldilməsi sahəsində görülən işlərə təkan verib.

### Milli yüksəliş salnaməsinin uğur nümunələri

Prezident İlham Əliyevin müşavirədə səsləndirdiyi rəqəmlər və faktlar tarixin ən güclü Azərbaycanının aydın mənzərəsini yaradır. Beləliklə, 16 ildə Azərbaycanda baş verən iqtisadi dəyişikliklərə nəzərə salaq. Bu dövrdə ölkə iqtisadiyyatı 3,4 dəfə artıb ki, bu da dünyada rekord göstəricidir. O cümlədən:

*- sənaye istehsalı 2,7 dəfə, kənd təsərrüfatı 2 dəfə artıb;*

*- valyuta ehtiyatlarımız 27 dəfə artaraq 52 milyard dollara çatıb;*

*- Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri istifadəyə verilib;*

*- Bakı-Tbilisi-Qars dəmir yolu tikilib;*

*- “Cənub qaz dəhlizi” çəkilib;*

*- Xəzərdə ən böyük liman olan Ələt Beynəlxalq Dəniz Limanı salınıb;*

*- 6-sı beynəlxalq olmaqla, 7 aeroport tikilib;*

*- Oğuz-Qəbələ-Bakı su kəməri çəkilib;*

*- orbitə 3 peyk çıxarılıb;*

*- 33 elektrik stansiyası tikilib, 3 min meqavat yeni generasiya gücü yaradılıb;*

*- qazlaşdırmanın səviyyəsi 51 faizdən 96 faizə çatıb;*

*- 16 min 700 kilometr avtomobil yolu tikilib;*

*- yoxsulluq 50 faizdən 4,8 faizə düşüb;*

*- Taxtakörpü və Şəmkirçay su anbarları tikilib;*

*- 1500-dən çox artezian quyusu qazılıb;*

*- orta əməkhaqqı 11 dəfə, pensiyalar 8 dəfə artıb;*

*- 300 mindən çox məcburi köçkünə, 6700 şəhid ailəsinə evlər, mənzillər verilib.*

**Ardı 2-ci səh.**

# Prezident İlham Əliyev Vasif Talıbova "Şərəf" ordenini təqdim edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 4-də Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Sədri Vasif Talıbovu qəbul edib.**



AZƏRTAC xəbər verir ki, Vasif Talıbov Naxçıvan Muxtar Respublikasında görülən işlər barədə dövlət başçısına məruzə etdi. O, 2019-cu ildə Naxçıvanda sosial-iqtisadi, kənd təsərrüfatı, tikinti, turizm və digər sahələrdə qazanılan uğurlardan danışdı və bütün bu uğurların əldə olunmasında Prezident İlham Əliyevin göstərdiyi diqqət və qayğını dərin minnətdarlıq hissi ilə qeyd etdi.

Prezident İlham Əliyev Naxçıvanda 2019-cu ildə əldə olunmuş uğurlar münasibətilə Vasif Talıbovu təbrik etdi. Dövlət başçısı Naxçıvan Muxtar Respublikasının inkişafı və təhlükəsizliyi məsələlərinin daim onun diqqət mərkəzində olduğunu vurğulayaraq, prezidentlik dövründə 14 dəfə Naxçıvana səfər etməsini bu diqqətin təzahürü kimi dəyərləndirdi.

Bu ilin yanvar ayında Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Vasif Talıbov 60 illik yubileyi münasibətilə ”Şərəf” ordeni ilə təltif edilib. Prezident İlham Əliyev ”Şərəf” ordenini Vasif Talıbova təqdim etdi.

Vasif Talıbov onun fəaliyyətinə verilən yüksək qiymətə görə dövlət başçısına minnətdarlığını bildirdi.

# Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Polad Bülbüloğlunu təbrik edib

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva bəstəkar, müğənni və ictimai xadim, Xalq artisti, Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlunu 75 yaşının tamam olması və "Heydər Əliyev" ordeni ilə təltif olunması münasibətilə təbrik edib.**



AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezident Mehriban Əliyevanın ”Instagram” səhifəsində yer alan təbrikdə deyilir:

”Azərbaycan Respublikasının Xalq artisti, ölkəmizin Rusiya Federasiyasındakı fövqəladə və səlahiyyətli səfiri Polad Bülbüloğlunu 75 illiyi və ”Heydər Əliyev” ordeni ilə təltif olunması münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Polad Bülbüloğlu yaradıcılığı insanların qəlbini mehribanlıq, nəciblik, yenilməz ruh yüksəkliyi kimi hisslərlə əhatə edir. Qeyri-adi istedadı və tükənməz enerjisi ona zaman çərçivəsi ilə məhdudlaşmayan gözəl əsərlər yaratmağa imkan vermişdir. Onun mahnıları müxtəlif nəslin nümayəndələri tərəfindən çox sevilir.

Dost və pərəstişkarlarının sevgi və hörmətini qazanmış parlaq və istedadlı şəxsiyyət Polad Bülbüloğluna möhkəm cansağlığı, doğma və yaxınlarının əhatəsində firavan həyat arzulayıram”.

# İqtisadi artımın dayanıqlığı əsasən investisiya qoyuluşu ilə bağlıdır

## Ötən il ölkə üzrə sərmayə yatırımının həcmi 17,1 milyard manatdan çox olmuşdur

Ölkə iqtisadiyyatının inkişaf dinamikasına diqqət yetirdikdə görürük ki, bunun başlıca səbəbi onun fasiləsiz kapitallaşmasıdır. Yəni iqtisadiyyatın bütün sahələrinə qoyulan sərmayə sonda öz müsbət bəhrəsini verir.

Müstəqilliyimizin bərpasından sonrakı ilk illərdə infrastruktur sahəsinə yatırılan sərmayə sayəsində Azərbaycanda mükəmməl infrastruktur yaranıb. Bu, nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən də təsdiq edilir. Beləliklə, ölkəmiz hazırda bu sahə üzrə dünyanın inkişaf etmiş ölkələri ilə bir sırada qərarlaşıb.

Son dövrlər isə iqtisadiyyatın real sektoruna kapital qoyuluşuna xüsusi diqqət yetirilir. Prezident İlham Əliyev çıxışlarında dəfələrlə qeyd edib ki, ölkənin hərtərəfli inkişafı real sektorun istehsal qabiliyyətindən asılıdır. Çünki istehsal və ixrac ölkənin dayanıqlı inkişafının başlıca şərtidir. Dünya təcrübəsi də göstərir ki, hansı ölkələr daha çox məhsul ixrac edərsə, hətta yaranan böhrandan daha az ziyanla çıxır. İdxalçı ölkələr isə belə böhran vəziyyətində daha çox ziyan çəkirlər.

Prezident İlham Əliyev ötən ilin yekunlarına həsr olunmuş müşavirədə bununla bağlı demişdir: “İnvestisiya proqramımız infrastruktur layihələrinin icrası ilə paralel olaraq iqtisadiyyatın real sektoruna dəstək verməlidir. O cümlədən bu infrastruktur layihələrinin real sektora olan təsiri də bir növ təhlil edilməli və mənə məlumat təqdim edilməlidir.

**Ardı 5-ci səh.**

9 fevral Milli Məclisə seçkilər günüdür

# Parlament seçkilərini müşahidə etmək istəyənlər üçün müraciət müddəti başa çatdı

Azərbaycanda fevralın 9-na təyin edilmiş parlament seçkilərində müəyyən seçki dairəsinin hüdudlarında müşahidə aparmaq üçün ərizələrin müvafiq dairə seçki komissiyasına təqdim edilməsi müddəti başa çatdı.



AZƏRTAC Secki-2020.az saytına istinadla xəbər verir ki, Azərbaycan Respublikasında parlament seçkilərinin hazırlanıb keçirilməsi üzrə əsas hərəkət və tədbirlərin Təqvim Planına əsasən, fəal seçki hüququna malik Azərbaycan Respublikasının vətəndaşı (öz təşəbbüsü ilə, qeydə alınmış namizədin, siyasi partiyanın, siyasi partiyalar blokunun, seçkilər sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşkilatının təşəbbüsü əsasında) seçkilərin təyin edilməsi haqqında sərəncamın rəsmi dərc olunduğu gündən başlayaraq seçkilərin keçirilməsinə 5 gün qalanadək, yəni 2020-ci il fevralın 4-dək müraciət edə bilər.

# Geniş beynəlxalq əməkdaşlıq layihəsi

## “Cənub qaz dəhlizi” Məşvərət Şurasının növbəti iclası da Bakıda keçiriləcək

Bu ay Bakıda “Cənub qaz dəhlizi” Məşvərət Şurasının nazirlər səviyyəsində növbəti görüşü keçiriləcək. Keçən ay Dünya İqtisadi Forumu çərçivəsində Davosda keçirilən görüşlər zamanı “Cənub qaz dəhlizi” layihəsindən ətraflı bəhs olunub və Prezident İlham Əliyev Məşvərət Şurasının fevralda baş tutacaq iclası barədə də məlumat verib.

Regionların 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının birinci ilinin yekunlarına həsr olunan konfransda Prezident toplantının bu ayın sonunda keçiriləcəyini vurğulayıb.

Bu, sayca altıncı toplantı olacaq. 2015-ci ildən başlayaraq indiyədək keçirilən tədbirlərin hamısına Azərbaycan evsahibliyi edib. Bu faktın özü də ölkəmizin “Cənub qaz dəhlizi”nə liderlik etdiyini, layihənin təşəbbüsçüsü və aparıcı qüvvəsi olduğunu bir daha təsdiqləyir.

Məşvərət Şurasının son altı ildə keçirilən toplantıları layihənin irəliləməsində mühüm rol oynayıb. Belə ki, tədbirlərdə görülmüş işlərə yekun vurulur, qarşıda duran vəzifələr geniş müzakirə edilir. Təsadüfi deyil ki, toplantıların hər birindən sonra layihə xeyli irəliləyir və onun salnaməsi yeni hadisələrlə zənginləşir. Elə son iki toplantını xatırlatmaq kifayətdir.

2018-ci ilin fevral ayında keçirilən dördüncü toplantıdan sonra layihədə mühüm irəliləyişlər oldu. May ayında Bakı yaxınlığındakı Səngəçal terminalında “Cənub qaz dəhlizi”nin rəsmi açılış mərasimi keçirildi. İyun ayında TANAP (Trans-Anadolu Qaz Boru Kəməri) istifadəyə verildi. Beləliklə, “Cənub qaz dəhlizi”nin üç seqmenti fəaliyyətə başladı.

**Ardı 5-ci səh.**

# Ə.B.Məmmədovun “Şərəf” ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan musiqi mədəniyyətinin inkişafında xüsusi xidmətlərinə görə Əlibaba Balaəhməd oğlu Məmmədov “Şərəf” ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 fevral 2020-ci il*

# Qazax rayonunda əkin sahələrinin və əhalinin içməli suya olan tələbatının ödənilməsi üçün subartezian quyularının layihələndirilməsi və qazılması ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Qazax rayonunun əhalisi 46271 nəfər olan 14 yaşayış məntəqəsində (siyahı əlavə olunur) əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya olan tələbatının ödənilməsi üçün 14 ədəd subartezian quyusunun layihələndirilməsi və qazılması məqsədilə Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşunun (investisiya xərclərinin) bölgüsündə Azərbaycanın rayonlarında su təchizatının yaxşılaşdırılması məqsədilə subartezian quyularının qazılması üçün nəzərdə tutulmuş vəsaitin 980,0 (doqquz yüz səksən) min manatı Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 fevral 2020-ci il*

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 4 fevral tarixli Sərəncamına Əlavə

## Qazax rayonunda qazılması nəzərdə tutulan subartezian quyularının yaşayış məntəqələri üzrə bölgüsünə dair siyahı

| Sıra №-si | Yaşayış məntəqələri | Quyuların sayı | Əhalinin sayı |
|---|---|---|---|
| 1. | Ağköynək kəndi | 1 | 3762 |
| 2. | Aslanbəyli kəndi | 1 | 402 |
| 3. | Aşağı Salahlı kəndi | 1 | 1960 |
| 4. | Cəfərli kəndi | 1 | 1254 |
| 5. | Çaylı kəndi | 1 | 7920 |
| 6. | Daş Salahlı kəndi | 1 | 10507 |
| 7. | Dəmirçilər kəndi | 1 | 1633 |
| 8. | Xanlıqlar kəndi | 1 | 3680 |
| 9. | Kəmərli kəndi | 1 | 3195 |
| 10. | Kosalar kəndi | 1 | 4573 |
| 11. | Qarapapaq kəndi | 1 | 1995 |
| 12. | Qaymaqlı kəndi | 1 | 2195 |
| 13. | Orta Salahlı kəndi | 1 | 1795 |
| 14. | Ürkməzli kəndi | 1 | 1400 |
| Cəmi | | 14 | 46271 |

# Tarixin ən güclü Azərbaycanını yaradan siyasət



*Əvvəli 1-ci səh.*

Beləliklə, dördüncü dövlət proqramının birinci ili də daxil olmaqla əldə olunan uğurlar, həyata keçirilən əzəmətli layihələr Azərbaycan dövlətinin və xalqının çox qısa dövr ərzində nail olduğu misilsiz, möhtəşəm və tarixi nailiyyətlər, milli yüksəliş salnaməsinin nümunələridir. *“Bu layihələrin aparıcı qüvvəsi, təşəbbüskarı, təşkilatçısı, əsas maliyyə yükünü öz üzərinə götürən ölkə bizik - Azərbaycandır və bunu etmişik. Bu layihələrin hər biri tarixi əhəmiyyət daşıyır. Bu layihələrin, ümumiyyətlə, görülən işlərin hamısı Azərbaycan xalqı qarşısında böyük xidmətlərdir. Çıxışımın əvvəlində dediyim kimi, uğurlu inkişafımızı, sabitliyi şərtləndirən, cəmiyyətdə xoş əhvali-ruhiyyəni formalaşdıran bizim siyasətimiz və addımlarımızdır. Nəyi demişiksə, onu da etmişik. Bir dənə də icra edilməmiş vəd yoxdur. Heç kim bunu tapa bilməz. 2003-cü ildə və ondan sonrakı illərdə nəyi demişəmsə, onu da etmişəm. Ona görə bizim sözümüzə də, işimizə də xalq tərəfindən böyük inam var. Mən həmişə demişəm ki, bizim sözümüzün qüvvəti imzamız qədər olmalıdır və bu gün bu, belədir”* - konfransda İlham Əliyev bu barədə danışarkən bildirib.

### Növbəti hədəflərə çatmaq üçün etibarlı bünövrə

Azərbaycan üçün xarakterik olan beynəlxalq uğurlardan biri qlobal kataklizmlərin daha da dərinləşdiyi həssas dönəmlərdə belə öz yolu ilə inamla addımlamasıdır. Bunun da əsas səbəblərindən biri dövlət proqramlarının icrası nəticəsində yaradılmış iqtisadi potensialdır. Beynəlxalq iqtisadi geriləmənin yaşandığı və sınaq dövrü olan illərdə Azərbaycan böhrandan layiqincə çıxıb və həyata keçirilən iqtisadi islahatlarla öz inkişafının yeni mərhələsinə qədəm qoyub.

Bu siyasət 2019-cu ildə respublikamızda iqtisadiyyatın bütün sahələrində müsbət nəticələrin qazanılmasını təmin etdi. Ona görə dövlət proqramının ilk ili də kifayət qədər mühüm göstəricilərlə zəngindir. Dövlət başçısının qeyd etdiyi kimi, proqram artıqlaması ilə icra edilib, nəzərdə tutulmuş məsələlər həll olunub. Belə ki, ötən il Azərbaycanda iqtisadiyyat 2,2 faiz, qeyri-neft sektoru 3,5 faiz, qeyri-neft sənayesi 14 faizdən çox artıb. Ötən il 98 min yeni iş yerinin yaradılması da qeyri-neft sənayesində baş verən artımın məntiqi nəticəsidir. Bu da onu göstərir ki, ölkədə həyata keçirilən yeni iqtisadi islahatlar öz bəhrəsini verir. Misal üçün, bir neçə il əvvəl yaradılan sənaye zonalarında artıq ötən il istehsalın ümumi həcmində 2,6 dəfə artım qeydə alınıb.

Ötən il inflyasiyanın cəmi 2,5 faiz təşkil etməsi də iqtisadiyyatda gedən pozitiv proseslərin nəticəsidir. Əhalinin gəlirlərində isə 7,4 faizlik artım var ki, bu da inflyasiyanın 3 dəfəyə qədər üstələnməsi deməkdir. Təbii ki, sosial məsələlər baxımından son bir ilin ən böyük hadisəsi 2019-cu ilin əvvəllərindən başlanan islahatlardır. Bunun da nəticəsində 4,2 milyon insanın sosial və maddi vəziyyəti yaxşılaşdırıldı. Minimum əməkhaqqı təxminən 2 dəfə, minimum pensiya 70 faizdən çox artdı. Sosial infrastruktur sahəsində də vəziyyət ürəkaçandır. Belə ki, ötən il 84 məktəb, 60 tibb müəssisəsi tikilib və təmir edilib.

Digər infrastruktur sahələrinə gəldikdə 2019-cu ildə ölkədə əlavə 800 meqavat elektrik enerjisi əldə olunub, 1300 kilometr avtomobil yolu salınıb, 80 min hektar torpağa su verilməsi təmin edilib, 300-dən çox subartezian quyusu qazılıb. Ötən ilin yaddaqalan mühüm iqtisadi hadisələrindən biri də valyuta ehtiyatlarımızın 6,4 milyard dollar artmasıdır.

Bu gün dünyanın siyasi-iqtisadi reallıqları kifayət qədər təzadlı, neqativ hadisələrlə doludur. O cümlədən Azərbaycana yaxın coğrafiyalarda da hərbi-siyasi proseslər baş verməkdədir. Amma mürəkkəb qlobal proseslər fonunda Azərbaycan iqtisadiyyatında inkişaf və makroiqtisadi sabitlik davam edib. Qeyri-neft sektorunun iqtisadi artımın əsas mənbələrindən birinə çevrilməsi istiqamətində keçirilən islahatlar yeni nəticələr verib, investisiya fəallığı yüksək səviyyədə qalıb. Bu baxımdan əvvəlki illərdə olduğu kimi, ötən il də respublikamızda sosial-iqtisadi inkişafın davamlı olması, əhalinin rifah halının daha da yaxşılaşdırılması, ölkənin beynəlxalq nüfuzunun əhəmiyyətli dərəcədə yüksəldilməsi, milli və dövlətçilik maraqlarının təmin olunması baxımından mühüm mərhələ oldu.

Əldə olunan hər bir müsbət nəticə isə dördüncü dövlət proqramında qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsindən xəbər verir. Qazanılan hər bir uğur isə növbəti hədəflərə çatmaq üçün etibarlı bünövrədir.

***Rəşad CƏFƏRLİ,***
***“Azərbaycan”***

# Qeyri-neft sənayesində istehsal və ixrac artır

## Bunun sayəsində idxal azalır, ölkədən valyuta axınının qarşısı alınır

Dünya təcrübəsinə nəzər yetirdikdə görürük ki, hər bir ölkənin iqtisadi gücü onun sənayesinin inkişafı ilə bağlıdır. Məlumdur ki, Azərbaycanda hələ sovetlər dönəmindən neft sənayesi güclü inkişaf edib. Müstəqilliyimizin bərpası ilə, demək olar ki, həmyaşıd sayıla bilən “Əsrin müqaviləsi” bağlanandan sonra isə bu sahə son texnologiyaların tətbiqi sayəsində dünya standartlarına cavab verir. Lakin bunu qeyri-neft sənayemizə aid etmək mümkün deyildi. Odur ki, həyata keçirilən sosial-iqtisadi islahatların başlıca məqsədlərindən biri də ölkə üzrə bu sahənin inkişafının təmin edilməsi olmuşdur.

Prezident İlham Əliyevin apardığı iqtisadi siyasət sayəsində son illər bu sahədə böyük uğurlar qazanılıb. Belə ki, ölkədə yüzlərlə kiçik, orta və iri sənaye müəssisələri fəaliyyətə başlayıb. Həmin müəssisələr bu gün məhsul istehsalını artırır və daxili tələbatı ödəməklə yanaşı, xarici bazara da məhsul ixrac edir. Bu da maliyyə dayanıqlığına və ölkədən valyuta axınının qarşısının alınmasına səbəb olur. Digər tərəfdən yerli istehsalın artımı idxaldan asılılığımızı azaldır.

Prezident İlham Əliyev ötən ilin yekunlarına həsr olunan müşavirədə Azərbaycanın sosial-iqtisadi sahədə, xüsusilə qeyri-neft sektorunda əldə edilən uğurlarını yüksək dəyərləndirərək demişdir: “Hesab edirəm ki, keçən il iqtisadi sahədə əldə edilmiş nəticələr qənaətbəxşdir. Ümumi daxili məhsul 2,2 faiz artmışdır, bu, yaxşı nəticədir, xüsusilə nəzərə alsaq ki, qeyri-neft sektorunda bu artım 3,5 faizdir. Sənaye istehsalı 1,5 faiz artmışdır, ancaq qeyri-neft sektorunda sənaye istehsalı 14 faiz artmışdır. Bu da son illər ərzində sənaye sahəsində görülmüş işlərin təzahürüdür. Azərbaycanda sənaye istehsalı həm dövlət vəsaiti hesabına, həm də özəl sektorun fəaliyyəti nəticəsində artmışdır. Əminəm ki, bu artım bundan sonra da dayanıqlı olacaqdır”.

Ölkədə qeyri-neft iqtisadiyyatının, ümumiyyətlə, qeyri-neft məhsulları ixracının, bütünlükdə iqtisadi artımın sürətləndirilməsi üçün elmi təhlillər aparılaraq planlı şəkildə müxtəlif tədbirlər görülür. Bu məqsədlə qeyri-neft sektoruna aid neft-kimya sənayesinə və digər sənaye sahələrinə irihəcmli sərmayələr qoyulur.

Dövlət başçısının tapşırığı ilə kiçik və orta sahibkarlığın inkişafı istiqamətində məqsədyönlü tədbirlər reallaşdırılır. Bu istiqamətdə klasterlərin və dövlət mexanizmlərinin istifadə edilməsi ilə kiçik və orta sahibkarlığa dəstək verilir. Xüsusilə qadınların və gənc sahibkarların dəstəklənməsi, onlara öz bizneslərini qurmaları üçün imkanlar yaradılır.

İndi isə bu sahədə ötən ilin yekunlarına nəzər salaq: Dövlət Statistika Komitəsinin verdiyi məlumata görə, ötən ilin yanvar-dekabr aylarında sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən istehsal olunan malların və göstərilən xidmətlərin həcmi 1,8 faiz artaraq 46,7 milyard manat təşkil edib. Sənayenin qeyri neft-qaz sektorunda istehsal 2018-ci ilin eyni dövrü ilə müqayisədə 14,3, qeyri-neft sektorunda 0,2 faiz artıb. Beləliklə, sənayedə qeyri-dövlət sektorunun payı 82,1 faiz olub. Ümumi istehsalın 88,1 faizi sənaye məhsullarının istehsalı, 11,4 faizi sənaye xarakterli xidmətlərin göstərilməsi hesabına formalaşıb.

Məlumatda o da qeyd edilir ki, ötən il 2018-ci illə müqayisədə uzunmüddətli istifadədə olan istehlak mallarının istehsalı 41,8, qısamüddətli istifadə olunan malların istehsalı 15,8, istehsal vasitələrinin istehsalı 20,7, enerji məhsullarının istehsalı 0,9, aralıq istehlak mallarının istehsalı 5,7 faiz artıb. Ötən il tütün məmulatlarının istehsalında 80,7, içki istehsalında 41,4, qida məhsullarının istehsalında 10,8 faiz artım qeydə alınıb. Bununla yanaşı, kolbasa məmulatlarının istehsalı 47,5, qənd və şəkər tozu istehsalı 40, qaymaq və xama istehsalı 23,7, cem və marmeladların istehsalı 11, alkoqolsuz içkilərin istehsalı 13,1 faiz çoxalıb.

Hesabat dövründə tikinti materialları istehsalı ilə məşğul olan müəssisələr 771,5 milyon manatlıq məhsul istehsal etmişlər ki, bu da 5 faiz artım deməkdir. Maşın və avadanlıqların, digər nəqliyyat vasitələrinin, avtomobil, qoşqu və yarımqoşquların istehsalı sahələrində 315,5 milyon manatlıq məhsul istehsal olunub. Həmin dövrdə habelə 905 traktor, 2360 minik avtomobili istehsal edilib, ştanqlı quyu nasoslarının istehsalı 65,9, fəvvarə armaturlarının istehsalı 48,5, mancanaq dəzgahlarının istehsalı 22,1 faiz artıb.

***Rüstəm KAMAL,***
***“Azərbaycan”***

# Ermənistan təxribat xarakterli fikirlərlə münaqişənin həllinə dair danışıqlara kölgə salmağa cəhd edir

Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması Ermənistan Xarici İşlər Nazirliyinin açıqlamasına münasibət bildirib.

Bu barədə AZƏRTAC-a “Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması” İctimai Birliyindən məlumat verilib.

Məlumatda deyilir: “Bu günlərdə ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə Cenevrədə Azərbaycan və Ermənistan Xarici İşlər nazirləri arasında danışıqlar baş tutdu. Görüşdən dərhal sonra Ermənistan XİN-in sözçüsü Anna Nağdalyan sülh prosesinə “Artsax xalqının seçilmiş nümayəndələrinin” cəlb edilə biləcəyi kimi təxribat xarakterli fikir səsləndirməklə, danışıqlara kölgə salmağa cəhd etdi.

Təəssüf hissi ilə qeyd edirik ki, Ermənistan tərəfi aparılan danışıqların həssas məqamlarında bu cür təxribatçı metodlardan istifadə edərək, münaqişənin sülh yolu ilə tənzimlənməsinə həmişə əngəllər yaradır. “Artsax xalqı” deyilən anlayış yoxdur, Dağlıq Qarabağda yaşayan ermənilər Azərbaycan xalqının tərkib hissəsidir və Azərbaycan vətəndaşlarıdır.

Heç bir əsası olmayan “Artsax xalqı” anlayışına dəfələrlə aydınlıq gətirilsə də, Ermənistan hər dəfə bu məsələni gündəmə gətirməklə özünün qeyri-konstruktiv mövqeyini ortaya qoymuş olur və dünya ictimaiyyəti tərəfindən qınaq obyektinə çevrilməkdən də çəkinmir”.

Bildirilir ki, Ermənistanın hakim dairələrinə bu məsələdə ən tutarlı cavabı ötən il Prezident İlham Əliyev Soçi şəhərində “Valday” beynəlxalq klubunun sessiyasında verdi və bəyan etdi ki, “Dağlıq Qarabağ xalqı” məfhumu yoxdur, Dağlıq Qarabağın əhalisi var”. Dağlıq Qarabağ əhalisinin bərabərhüquqlu azərbaycanlı və erməni icmalarından ibarət olmasına dair mövqenin ATƏT-in Minsk qrupunun həmsədrlərinin keçən il verdikləri bəyanatlarında və Rusiyanın Xarici İşlər naziri Sergey Lavrovun Bakıya son səfəri zamanı açıqlamasında təkrarlandığının şahidi olduq. Bu məsələ ATƏT (ovaxtkı ATƏM) Helsinki Nazirlər Şurasının 1992-ci ilin 24 mart tarixli sənədində də təsbit olunub.

“Ermənistanın rəsmi dairələrinin əsassız bəyanatları Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində Dağlıq Qarabağın azərbaycanlı və erməni icmalarının birgə yaşayışının qarşısını ala bilməyəcək. Biz öz torpaqlarımıza geri dönəcəyik, pozulmuş hüquqlarımızı və dağıdılmış mülklərimizi bərpa edəcəyik”, - deyə məlumatda qeyd olunur.

# Ermənistan Paşinyana daha dözmək istəmir

## İctimai-siyasi vəziyyətin gərginləşməsi işğalçı ölkəni yeni xaosa sürükləyir

Ermənistanda Nikol Paşinyan baş nazir seçildikdən sonra gözlənilirdi ki, ölkədə normal həyat tərzi başlayacaq və rəhbərlik daxili, xarici siyasətdə beynəlxalq səviyyədə qəbul edilmiş qaydalar çərçivəsində fəaliyyət göstərəcək. Lakin siyasi istiqaməti məlum olmayan və ümumiyyətlə, dövlətçilikdə naşı olan Paşinyanın danışanda “nala-mıxa” vurması bir yana, küçə yürüşlərinin səfasını görmüş əhali də bu metoddan özünə sərf şəkildə davamlı istifadəyə başlayıb.

Qeyd edilir ki, məhz Paşinyan iqtidarının yarıtmaz siyasəti, Dağlıq Qarabağ münaqişəsinin həllinin uzanması səbəbindən təcrid vəziyyətinə düşmüş Ermənistan inkişafdan geri qalır. Ölkədə əhalinin sayının ildən-ilə azalması elə həddə çatıb ki, daha nə vaxtsa artacağı şübhə altındadır.

İşğalçı ölkənin ictimai-siyasi həyatında da vəziyyət gərgin olaraq qalmaqdadır. Bu gün Ermənistanda bir çoxu baş nazir Nikol Paşinyanla Konstitusiya Məhkəməsinin sədri Qrayr Tovmasyan arasındakı mübarizəni yüksək həddə çatdığını bildirsə də, əksəriyyət məsələnin kökündə nəyin dayandığını hələ də başa düşmək belə istəmir. Politoloq Artsrun Pepanyanın sözlərinə görə, Ermənistan hakimiyyətində təkcə özünü görən Paşinyan öz iqtidarının maraqlarına xidmət edəcək tərkibdə Konstitusiya Məhkəməsini yaratmaq istəyir. Erməni politoloq bildirib ki, Konstitusiya Məhkəməsinə qarşı mübarizənin əsas səbəblərindən biri kimi, konvensiyaların ratifikasiya edilməməsi qorxusudur. Vurğulayır ki, demokratik cəmiyyətlərdə müstəqil məhkəmələr icra hakimiyyətinin təsiri altına düşmür: “Belə görünür ki, Paşinyan Ermənistanda məhkəmələrin müstəqil olmasını istəmir. Nə hazırkı, nə də əvvəlki hakimiyyətlər dövründə erməni xalqının maraqları nəzərə alınıb. Buna baxmayaraq, əvvəlki hakimiyyətlər dövründə belə miqyaslı bir gərginlik və milli maraqlara hörmətsizlik də olmayıb”.

“Lragir” qəzeti yazır ki, hakimiyyət mövqeyini dəyişməli və dövlətin onların şəxsi mülkiyyəti olmadığını başa düşməlidir: “Adətən ölkənin siyasi orqanları daxili qiymətləndirmələrə diqqət yetirmədikdə belə qiymətləndirmələrə beynəlxalq qurumlar müdaxilə edirlər. Məhz bu mənada Avropa Şurası Parlament Assambleyası həmməruzəçilərinin Ermənistandakı Paşinyan-Tovmasyan qarşıdurması ilə bağlı hesabat hazırlamaları təbiidir”.

Bildirilib ki, Ermənistandakı iki dövlət rəsmisi - baş nazir və Konstitusiya Məhkəməsinin sədri arasındakı gərginliyin qarşısının alınması üçün yeganə yol hakimiyyətin mövqeyini dəyişməsidir. Nəzarət və tarazlıq olmasa, demokratiya və qanunun aliliyi haqqında danışmaq yersizdir. AŞ PA-dan gələn siqnalın kiməsə təsir edəcəyinə dair zəmanət yoxdur. Bu, problemin dərhal hüquqi həllinə səbəb olmayacaq. Burada baş verənləri mükəmməl başa düşən və hələ də səssiz qalan əhalinin roluna daha çox əhəmiyyət verilməlidir.

Son iki il ərzində Ermənistanda sosial-iqtisadi müstəvidə vəziyyətin daha böyük sürətlə pisləşməsi müşahidə edilməkdədir. Erməni mediası yazır ki, real vəziyyət Paşinyan iqtidarının yarıtmaz siyasətinin, ölkənin inkişafı naminə hansısa uğurlu addım ata bilməməsinin konkret göstəricisidir. Mətbuatda yazılır ki, ötən dövr ərzində hakimiyyət xalqı yox, yalnız özünü düşündüyü üçün Ermənistan indiki acınacaqlı vəziyyəti yaşayır. Vurğulanır ki, korrupsiya nəticəsində hakimiyyət təmsilçilərinin var-dövləti artdığı halda, sadə əhalinin güzəranı daha da pisləşib: “Bu vəziyyətdə Paşinyan və komandasının apardığı siyasət cəmiyyətdə böyük narazılıq doğurur. Bu gedişlə xalq etimadı itirmiş Paşinyan hakimiyyətinə daha dözmək istəməyəcək”.

“1in.am” saytı da əhalinin rifah halının Paşinyan iqtidarından sonra kifayət qədər acınacaqlı bir duruma düşdüyünü vurğulayır. Qeyd olunur ki, məhz bu iqtidarın siyasəti nəticəsində Ermənistanın borcları sürətlə artır, əhalinin rifahı isə aşağı düşür. İndi sual olunur, hazırda hakimiyyətdə olanlar xalqın istədiklərini onlara verə bilmək bacarığına malikdirlərmi? Həbslər və daxili qarşıdurma fonunda belə görünür ki, yox. Belə olan təqdirdə aydın məsələdir ki, xalqın tələbləri yerinə yetirilməyəcək. Yəni Ermənistanda yoxsulluq, korrupsiya, işsizlik əvvəlki qaydasında davam edəcək. Ölkənin tənəzzülü qaçılmaz olacaq.

Beləliklə, görünən odur ki, hazırda işğalçı ölkədə hakimiyyət həqiqi işlə yox, avantüra ilə məşğuldur. İqtidar rəsmiləri yalnız populist çıxışlarla camaatın könlünü ələ almaq istəyirlər. Xalq isə bunları görür, etiraz edir. Bu fonda da Ermənistanda ictimai-siyasi vəziyyət sürətlə gərginləşir.

***Elçin CƏFƏROV,***
***“Azərbaycan”***

## 9 fevral Milli Məclisə seçkilər günüdür

# Türk Şurasının nümayəndə heyəti Mərkəzi Seçki Komissiyasının sədri ilə görüşüb



Fevralın 4-də Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov fevralın 9-da keçiriləcək Azərbaycan Respublikasının Milli Məclisinə seçkiləri müşahidə etmək məqsədilə ölkəmizdə səfərdə olan Türk Şurasının nümayəndə heyəti ilə görüşüb.

MSK Katibliyinin Media və ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, sədr Məzahir Pənahov nümayəndə heyətini salamlayaraq görüşdən məmnunluğunu bildirib. O qeyd edib ki, rəhbərlik etdiyi qurum beynəlxalq təşkilatlarla qarşılıqlı faydalı əməkdaşlığa daim xüsusi əhəmiyyət verir. Məhz beynəlxalq qurumlarla sıx münasibətlərin nəticəsidir ki, Azərbaycanda seçki sistemi və seçki praktikası ilbəil daha da təkmilləşərək hazırkı inkişaf səviyyəsinə çatıb.

Türk Şurası nümayəndə heyətinin üzvləri MSK-dakı səmimi qəbula görə minnətdarlıqlarını bildirib, ölkəmizin seçki sistemi və qarşıdan gələn Milli Məclisə seçkilərə hazırlıq istiqamətində görülən işlərlə maraqlanıblar.

Nümayəndə heyətinin suallarını ətraflı cavablandıran MSK sədri Milli Məclisə seçkilərin yüksək səviyyədə hazırlanıb azad və ədalətli keçirilməsi üçün reallaşdırılan irimiqyaslı layihələri və atılan addımları onların diqqətinə çatdırıb.

Görüş çərçivəsində qarşılıqlı maraq kəsb edən digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

# MSK-da veb-kameralara texniki nəzarət mərkəzinə baxış keçirilib



Qarşıdan gələn Milli Məclisə seçkilərlə əlaqədar fevralın 4-də Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov və Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri Ramin Quluzadə komissiyanın inzibati binasındakı veb-kameralara texniki nəzarət mərkəzinə baxış keçirib və veb-kameraların quraşdırılması ilə bağlı son hazırlıq işləri ilə tanış olublar.



Bildirilib ki, indiyədək ölkəmizdə keçirilən bütün seçkilər çoxsaylı aşkarlıq institutlarının, xüsusilə yerli və beynəlxalq müşahidəçilərin, yerli və xarici kütləvi informasiya vasitələrinin yaxından iştirakı ilə xarakterizə olunub.

AZƏRTAC xəbər verir ki, respublikamızda keçirilən seçkilərdə şəffaflığın beynəlxalq standartlara uyğun, yüksək səviyyədə təmin olunması üçün digər vasitələrlə yanaşı, informasiya-kommunikasiya texnologiyalarının ən son nailiyyətləri də uğurla tətbiq edilir və bu da seçkilərlə bağlı bütün prosesləri əvvəldən axıradək fasiləsiz izləməyə, azad və maneəsiz müşahidə aparmağa və beləliklə, aşkarlığın daha dolğun təminatına imkan verir. Azərbaycan müşahidəçilərin sərbəst fəaliyyəti üçün yaradılan geniş və hərtərəfli imkanlar baxımından nümunə ola bilər.

Bu il də respublikamızın ictimai-siyasi həyatında mühüm hadisə olan parlament seçkilərində müxtəlif metod və vasitələrdən istifadə etməklə şəffaflığın təmin olunmasına xüsusi diqqət yetirilib. Azərbaycanda artıq 12-ci ildir ki, uğurla tətbiq olunan və seçki məntəqələrinə getmədən, internet vasitəsilə səsvermə prosesini birbaşa izləməyə imkan verən veb-kameralardan istifadə təcrübəsi cari il parlament seçkilərində də davam etdirilir. Seçki günü - fevralın 9-da seçki məntəqələrində proseslərin tamamilə müşahidə edilməsi məqsədilə 1000 seçki məntəqəsində veb-kamera quraşdırılıb. Veb-kameralar vasitəsilə keyfiyyətli və fasiləsiz yayım imkanlarının təmin edilməsi üçün kameraların quraşdırılması, tənzimlənməsi və digər texniki parametrlərin daha da təkmilləşdirilməsi mütəmadi qaydada diqqət mərkəzində saxlanılır. Seçki günü internet istifadəçiləri həm ölkə daxilindən, həm də ölkə xaricindən MSK-nın rəsmi internet səhifəsinə daxil olmaqla heç bir qeydiyyat tələb olunmadan səsvermə prosesi, səslərin sayılması və nəticələrin müəyyənləşdirilməsini arasıkəsilmədən birbaşa müşahidə etmək imkanına malik olacaqlar.

## *Məzahir PƏNAHOV:* "Parlament seçkiləri ilə əlaqədar 1000 məntəqədə veb-kamera quraşdırılıb

"Ölkəmizdə artıq neçənci seçkilərdir ki, veb-kamera praktikasından istifadə olunur. Azərbaycanda seçki məntəqələrinin təxminən 20 faizində, yəni 1000 məntəqədə veb-kamera quraşdırılıb".

AZƏRTAC xəbər verir ki, bunu Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov deyib.

Veb-kameralar vasitəsilə seçkilərin gedişini izləməyin çox sadə proses olduğunu qeyd edən MSK sədri bildirib: "Bunun üçün heç bir icazə tələb olunmur. İstənilən şəxs MSK-nın rəsmi saytına daxil olmaqla səsvermə günü 1000 məntəqədə səsvermənin gedişini izləyə bilər. Dünyanın hansı yerində olmasından asılı olmayaraq, istənilən şəxs Azərbaycanda keçiriləcək seçkiləri izləmək imkanına malikdir. Bu, demokratik ölkələrin seçki praktikasında da qəbul olunmuş haldır. Azərbaycanda seçkilərin şəffaf və azad keçirilməsi üçün bütün şərait yaradılıb", - deyə M.Pənahov bildirib.

## *MDB müşahidə missiyasının üzvü:* "Parlament seçkilərinə hazırlıq yüksək səviyyədə aparılır"

"İsmayıllıda, Qəbələdə, Oğuzda, Şəkidə dairə və məntəqə seçki komissiyalarında oldum. Həm dairə, həm də məntəqə seçki komissiyalarında apardığımız müşahidələrə əsasən deyə bilərəm ki, parlament seçkilərinə hazırlıq yüksək səviyyədə aparılır".

AZƏRTAC xəbər verir ki, bunu Secki-2020.az saytına açıqlamasında MDB müşahidə missiyasının üzvü Pyotr Qalkeviç deyib.

O bildirib ki, görüşlərdə deputatlığa namizədlər, eləcə də seçicilər tərəfindən hər hansı şikayət edilməyib.

"Şəxsən mənə fəaliyyətimi həyata keçirmək və lazımi informasiyalar almaq üçün bütün şərait yaradılıb", - deyə Pyotr Qalkeviç əlavə edib.

## *Belkıs YAKICI:* "Azərbaycanda keçiriləcək parlament seçkiləri cəmiyyətin siyasi həyatına yeni rəng qatacaq"



"Azərbaycanda müasirləşmə istiqamətində böyük addımlar atılıb. Prezident İlham Əliyevin apardığı son islahatlar müasirləşmənin tərkib hissəsidir".

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Türkiyə-Azərbaycan İş və Məslək Sahibi Qadınlar Dərnəyinin sədri Belkıs Yakıcı bildirib.

O qeyd edib ki, Azərbaycan tam sabit və təhlükəsiz ölkədir. Xarici iş adamlarının ölkəyə investisiya yatırması üçün dövlət tərəfindən bütün imkanlar yaradılıb.

Azərbaycanda keçiriləcək parlament seçkilərinin cəmiyyətin siyasi həyatına yeni rəng qatacağını vurğulayan Belkıs Yakıcı deyib ki, Azərbaycan dünyadakı siyasi nüfuzunu artırır. Parlament seçkilərində qadın namizədlərin sayının artması sevindirici haldır. O diqqətə çatdırıb ki, gələcəkdə sahibkar qadınların parlamentdə çoxluq təşkil etməsi Azərbaycanın ticarət əlaqələrini daha da genişləndirə bilər.

"Mənim rəhbərlik etdiyim dərnəkdəki qadın sahibkarların Azərbaycanla bağlı investisiya maraqları böyükdür. İnvestisiya yatırmaq üçün Azərbaycanda geniş imkanlar mövcuddur", - deyə o əlavə edib.

B.Yakıcı bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə aparılan islahatlar Azərbaycanın dünyadakı nüfuzunu daha da möhkəmləndirir, ölkənin iqtisadi imkanlarını genişləndirir.

# Seçkilərdə müşahidənin aparılmasının prinsipləri, müşahidəçilərin hüquq və vəzifələri



Ən son açıqlanan rəqəmlərə görə, seçkiləri müşahidə etmək üçün 65 min 766 yerli və 842 beynəlxalq müşahidəçi akkreditasiyadan keçib.

AZƏRTAC xəbər verir ki, Secki-2020.az saytı parlament seçkiləri ərəfəsində müşahidənin aparılmasının prinsiplərinə, müşahidəçilərin hüquq və vəzifələrinə nəzər salıb.

Müşahidəçilər seçki prosesinə bir namizədin və ya siyasi partiyanın mənafeləri naminə təsir göstərməməlidir. Müşahidə edilən hərəkətlərə aid olan bütün hallar və faktlar nəzərə alınmalıdır. Müşahidə açıq aparılmalıdır, müşahidənin yekunları faktlara əsaslanmalıdır.

Eyni zamanda müşahidəçilər bir neçə şərtə riayət etməlidirlər. Belə ki, müşahidəçilər seçicilərin iradəsini azad və sərbəst bildirmələrinə maneçilik törətməməli, səsvermənin gizliliyini saxlamaq və saxlanılmasına kömək göstərməlidirlər.

Onlar, həmçinin mətbuat azadlığına hörmət bəsləməli, öz peşə fəaliyyəti ilə məşğul olan kütləvi informasiya vasitələri nümayəndələrinin işinə mane olmamalı, namizədlərin seçki kampaniyalarına müdaxilə etməməli və onu pozmamalıdırlar. Müşahidəçilər seçkiqabağı təşviqat materiallarının yayılmasına mane olmamalı, onları məhv etməməli və korlamamalıdır.

Onlar seçkiqabağı kütləvi tədbirlərə mane olmamalı, seçkilərin azad, sərbəst, dinc və mütəşəkkil keçirilməsi üçün seçki orqanları və onların vəzifəli şəxsləri ilə əməkdaşlıq etməlidirlər. Bundan əlavə, müşahidəçilər təzyiq göstərmək və ya bəxşiş təklif etmək yolu ilə, yaxud digər qanunazidd üsullarla seçiciləri səs verməyə, səs verməkdən çəkindirməyə sövq edə bilməzlər.

Müşahidəçilərin riayət etməli olduqları digər şərtlər isə aşağıdakılardır:

Təzyiq göstərmək, bəxşiş təklif etmək yolu ilə və ya digər qanunazidd üsullarla seçiciləri seçkiqabağı təşviqatda iştirak etməyə və ya iştirakdan yayınmağa məcbur etməmək; səlahiyyətli şəxslərə və müşahidəçilərə hörmət bəsləmək, onlarla əməkdaşlıq etmək; seçki komissiyalarının fəaliyyətlərinə əsassız müdaxilə etməmək, səsvermə və ya səslərin hesablanması prosesini pozmamaq; seçkilərin qanuni təsdiqlənmiş nəticələrinə hörmət etmək, seçkilərlə bağlı hər bir şikayəti səlahiyyətli orqana təqdim etmək və həmin orqanın bu şikayətlə bağlı qərarına hörmət bəsləmək; hədə-qorxu, böhtan xarakterli və ya zorakılığa çağıran çıxışlar etməmək və bu cür materialları yaymamaq; dövlət, bələdiyyə və digər ictimai resurslardan Seçki Məcəlləsi ilə nəzərdə tutulmamış hallarda istifadə etməmək.

Müşahidəçilər qanunla onlar qarşısında qoyulmuş tələbləri pozarlarsa, İnzibati Xətalar Məcəlləsi və Cinayət Məcəlləsində nəzərdə tutulan məsuliyyətə cəlb olunurlar.

Seçkiləri izləyən müşahidəçilərin aşağıdakı hüquqları var:

Səsvermə günü istədiyi vaxt müvafiq seçki məntəqəsinin səsvermə otağında olmaq; səsvermə günü seçki komissiyasının iclaslarını müşahidə etmək; seçici siyahıları ilə tanış olmaq; seçki məntəqəsi açıq elan edilməzdən əvvəl məntəqə seçki komissiyasının icra etməli olduğu hərəkətləri müşahidə etmək; səsvermənin təşkili ilə əlaqədar təklif və iradlarla məntəqə seçki komissiyasının sədrinə və ya onu əvəz edən şəxsə müraciət etmək; seçicilərin barmaqlarına gözə görünməyən mürəkkəbin çilənməsini və onlara seçki bülletenlərinin verilməsini müşahidə etmək; seçicilərin səsvermə kabinəsinə daxil olmalarını və oranı tərk etmələrini, seçki bülletenlərinin seçki qutusuna salınmasını müşahidə etmək; səsvermə otağından kənarda səsvermə prosesini müşahidə etmək, eyni zamanda, daşınan seçki qutusunu müşayiət etmək; səs vermiş seçicilərin sayını hesablamaq; seçki qutularından çıxmış seçki bülletenlərinin sayılmasını müşahidə etmək; müşahidə aparmağı təmin edən şəraitdə və müəyyən məsafədən seçicilərin səslərinin hesablanmasını müşahidə etmək; səslərin hesablanması və səsvermənin nəticələri haqqında protokolun doldurulmasını müşahidə etmək; müşahidənin nəticələrinə dair rəyin seçki komissiyasının protokoluna əlavə olunmasını tələb etmək; seçki komissiyalarının sənədlərinin surətlərini qanunauyğun çıxarmaq və ya almaq; seçicilərin səslərinin təkrar hesablanmasını müşahidə etmək; seçki sənədlərinin yuxarı seçki komissiyalarına göndərilməsini müşahidə etmək.

Qeyd edək ki, yerli və beynəlxalq müşahidəçilər eyni hüquqlara malikdirlər və eyni vəzifələr daşıyırlar.

# Şəkinin seçki dairələrində parlament seçkilərinə hazırlıq işləri tam başa çatıb

Bu il fevralın 9-na təyin edilmiş Milli Məclisə seçkilərə saylı günlər qalıb. Şəki rayonunun ərazisində fəaliyyət göstərən 113, 114 və 115 saylı seçki dairələrində parlament seçkilərinə hazırlıq işləri tam başa çatıb və bütün seçki məntəqələri səsverməyə hazır vəziyyətə gətirilib. AZƏRTAC seçki məntəqələrinin hazırlıq vəziyyəti ilə tanış olmaq üçün hər üç dairənin bir neçə seçki məntəqəsində olub, məntəqə seçki komissiyalarının fəaliyyəti ilə maraqlanıb.

113 saylı Şəki şəhər seçki dairəsi dairə seçki komissiyasının sədri Rəhman Qədirzadənin bildirdiyinə görə, Milli Məclisə seçkilərə hazırlıq işləri Mərkəzi Seçki Komissiyasının (MSK) təsdiq etdiyi təqvim-plana və Seçki Məcəlləsinin tələblərinə uyğun şəkildə aparılıb. Səsvermənin keçiriləcəyi 29 seçki məntəqəsinin hər biri zəruri avadanlıqla, habelə müxtəlif təlimat və texniki vasitələrlə, dayanıqlı rabitə ilə təmin olunub. Səsverməyə 5 gün qalmış Şəki Penitensiar Xidmət Müəssisəsində 30 saylı seçki məntəqəsi də yaradılacaq. Dəqiqləşdirilmiş son seçici siyahılarına görə, dairə üzrə seçicilərin ümumi sayı 37 min 223 nəfərdir. Onlardan 12 nəfəri ilk dəfə səs verəcək.

Komissiya sədrinin sözlərinə görə, dairə üzrə 8 nəfər namizəd qeydə alınıb. Onlardan bir nəfəri siyasi partiyanı təmsil edir. Yeddi nəfərin namizədliyi isə öz təşəbbüsləri ilə irəli sürülüb. Dairə üzrə 421 nəfər yerli və 3 nəfər beynəlxalq müşahidəçi qeydiyyatdan keçib.

Dairənin tərkibində olan 25 saylı seçki məntəqəsi şəhərdəki 8 saylı tam orta məktəbin binasında yerləşir. Məntəqə seçki komissiyasının sədri Əminə İsmayılovanın məlumatına görə, məntəqə üzrə 1227 seçici qeydə alınıb. Onlardan 10 nəfəri bu seçkilərdə ilk dəfə səs verəcək. Məntəqə üzrə yaşlı və səhhətində problemləri olan seçicilərin də siyahısı çıxarılıb. Müraciət olunarsa, onların evlərinə daşınan seçki qutusu göndəriləcək. Seçicilərə səsvermənin keçirilmə vaxtı və yeri barədə bildirişlərin paylanılması işi artıq başa çatıb.

114 saylı Şəki kənd birinci seçki dairəsində də parlament seçkilərinə hazırlıq işləri MSK-nın təsdiq etdiyi təqvim-plana uyğun aparılır. Dairə seçki komissiyasının sədri Məharət Məmmədovun bildirdiyinə görə, 39 min 111 seçicinin qeydə alındığı bu dairədə səsvermə 43 seçki məntəqəsində keçiriləcək. İlk dəfə səs verəcək seçicilərin sayı 90 nəfərdir. Dairə üzrə bir mandat uğrunda 10 namizəd mübarizə aparır. Onlardan bir nəfəri siyasi partiyanı təmsil edir. Doqquz nəfərin namizədliyi isə öz təşəbbüsləri ilə irəli sürülüb. Seçkilərin gedişini izləmək üçün 601 nəfər müşahidəçi qeydiyyatdan keçib. Dairənin Aşağı Göynük kəndindəki diyarşünaslıq evində fəaliyyət göstərən 7 saylı seçki məntəqəsində də seçkilərə hazırlıq işləri başa çatıb və məntəqə səsverməyə tam hazır vəziyyətdədir. Seçki komissiyasının sədri Şükrət İdrisovun bildirdiyinə görə, 971 seçicinin qeydə alındığı bu məntəqə üzrə qeydə alınan ən yaşlı seçicinin - 90 yaşlı Göyçək Qasımovanın evinə daşınan seçki qutusu aparılacaq.

115 saylı Şəki kənd ikinci seçki dairəsi dairə seçki komissiyasının sədri Rasim Əzizovun məlumatına görə, dairənin tərkibində olan 43 seçki məntəqəsində seçicilərin ümumi sayı 37 min 542 nəfərdir. Onlardan 61 nəfəri ilk dəfə səs verəcək. Dairə üzrə yeganə mandat uğrunda 8 namizəd mübarizə aparır. Onlardan bir nəfəri siyasi partiyanı təmsil edir. Yeddi nəfərin namizədliyi isə öz təşəbbüsləri ilə irəli sürülüb. Seçki məntəqələrində səsvermənin gedişini 417 yerli müşahidəçi izləyəcək. Dairənin bütün seçki məntəqələri zəruri avadanlıq və texniki vasitələrlə təmin olunub. Məntəqə seçki komissiyalarının üzvləri səsvermə gününün prosedurları barədə tam məlumatlandırılıblar.

Dairənin tərkibində olan 37 saylı seçki məntəqəsində Milli Məclisə seçkilərin qanunvericiliyin tələblərinə uyğun keçirilməsi üçün hər cür şərait yaradılıb. Məntəqə seçki komissiyasının sədri Günel Rəhimovanın bildirdiyinə görə, artıq bütün seçicilərə səsvermənin vaxtı və yeri barədə bildirişlər paylanılıb.

## *ATƏT PA-nın sədri:* "Şəffaf və rəqabətli seçkilər Azərbaycanda səmərəli islahatlar üçün zəruri olan yeni parlamentə inamı artırır"



"Şəffaf və rəqabətli seçkilər Azərbaycanda səmərəli islahatlar üçün zəruri olan yeni parlamentə inamı artırır".

AZƏRTAC xəbər verir ki, bu fikir ATƏT Parlament Assambleyasının sədri Georgi Tseretelinin Azərbaycana səfərinin nəticələri ilə bağlı yayılan məlumatda yer alıb.

Georgi Tsereteli beynəlxalq müşahidəçilərin Azərbaycanda keçiriləcək parlament seçkilərinə böyük maraq göstərdiklərini bildirib. O, Bakıya səfəri zamanı bir sıra görüşlər keçirdiyini qeyd edib. Azərbaycan Prezidenti İlham Əliyevlə görüşün daha maraqlı və məhsuldar olduğunu vurğulayan ATƏT PA-nın sədri seçkilərlə əlaqədar hakimiyyətin atdığı mütərəqqi addımların diqqət mərkəzində olduğunu bildirib.

G.Tsereteli, həmçinin deyib ki, Bakıda keçirilən görüşlərdə Gürcüstan-Azərbaycan münasibətlərinin inkişaf perspektivləri, regional əməkdaşlıq və təhlükəsizlik məsələləri də diqqət mərkəzində olub.

## *Yevgeni KOZYAK:* "Azərbaycanda seçkiöncəsi proses qanunauyğun şəkildə aparılır"



"MDB müşahidə missiyası Milli Məclisə keçirilən seçkilərlə bağlı monitorinqini davam etdirir. MDB müşahidəçiləri Qəbələ, İsmayıllı, Oğuz, Şamaxı, Şəki rayonlarında və Naxçıvan Muxtar Respublikasındakı dairə seçki komissiyalarının işi ilə tanış olublar. Müşahidələr zamanı seçkiöncəsi prosesin qanunauyğun şəkildə aparıldığını gördük".

Bu fikirləri AZƏRTAC-a açıqlamasında MDB müşahidə missiyası qərargahının rəhbəri Yevgeni Kozyak bildirib.

O qeyd edib ki, seçki komissiyalarının üzvləri müşahidəçilərə seçici siyahılarının yenilənməsi, seçki komissiyasının üzvlərinin təlimi, habelə seçicilərə səsvermə məntəqəsinin ünvanı, səsvermə vaxtı və siyahıdakı seçicinin nömrəsi barədə bildirişlərin göndərilməsi ilə bağlı məlumat veriblər. Missiya nümayəndələri seçki komissiyalarının iclaslarının protokolları və seçkilərlə əlaqəli digər sənədlərlə tanış olmaq imkanı əldə ediblər.

Y.Kozyak qeyd edib ki, dairə və məntəqə seçki komissiyalarının rəhbərliyi və üzvləri ünsiyyətə açıqdırlar, seçki kampaniyasının keçmiş mərhələləri barədə lazımi məlumat verirlər. Komissiyaların binaları ofis avadanlığı, ehtiyat enerji mənbələri, lazımi metodiki ədəbiyyat və seçkilərlə bağlı əyani vəsaitlərlə təmin edilib.

Onun sözlərinə görə, missiya və Beynəlxalq Demokratiyanın İnkişafı, Parlamentarizm və Vətəndaşların Seçki hüquqlarına Müşahidəsi İnstitutunun ekspertləri Azərbaycan Respublikasının seçki qanununun təhlilini tamamlayıb. Missiya yekun sənəddə səsvermə günündən sonra seçki hüququ ilə bağlı rəyini bildirəcək.

Yevgeni Kozyak əlavə edib ki, MDB müşahidə missiyasının formalaşdırılması başa çatıb. Müşahidə missiyası Belarus, Qazaxıstan, Qırğızıstan, Moldova, Rusiya, Tacikistan, Türkmənistan, Özbəkistan, habelə MDB üzvü olan dövlətlərin Parlamentlərarası Assambleyasını, Belarus və Rusiya İttifaqı Parlament Assambleyasını təmsil edən 252 nəfərdən ibarətdir.

# REGİONLAR



## Hər sahədə artım var

Göygöl rayonunun sakinləri əvvəlki illərlə müqayisədə keçən il nailiyyətlərin sayını xeyli artırmışlar. Buna baxmayaraq onlar istər kənd təsərrüfatı, istərsə də sənaye sahəsində qazandıqları nailiyyətdən arxayınlaşmır, abadlıq və quruculuq işlərini genişləndirirlər. Bunun sayəsində istər yerli, istərsə də xarici turistlərin rayona maraqları artıb.






Rayon icra hakimiyyətinin başçısı Arif Seyidov söhbət zamanı dedi ki, keçən il Göygölə 88 minə yaxın yerli və əcnəbi turist gəlmişdir. Onların 7 min 453 nəfəri xarici turistlərdir. Türkiyə, Rusiya, Qazaxıstan, Ukrayna, Belarus, Çin Xalq Respublikası, Gürcüstan, Almaniya və digər ölkələrdən gələn turistlər ən çox rayonun Toğanalı, Aşıqlı, Yeni Zod, Çaykənd, Bənövşəli, Topalhəsənli və Şəhriyar kəndlərində istirahət etmişlər.

Rayonda olarkən onu da öyrəndik ki, ötən il fermerlər 8007,8 hektar sahədən 20800 ton taxıl tədarük etmişlər. Bu da əvvəlki ildəkindən 1075 ton çoxdur. 465 nəfər kənd təsərrüfatı məhsullarının istehsalçılarına 70 faiz güzəştlə 862,95 ton gübrə və 3972,5 litr kimyəvi preparat satılmışdır. 2020-ci ilin məhsulu üçün isə 5 min hektar sahəyə payızlıq taxıl səpilmişdir.

Əkin sahələrini suvarma suyu ilə təmin etmək üçün 175 subartezian quyusunda cari, 3 subartezian quyusunda əsaslı təmir işləri aparılmış, qapalı boru şəbəkələri, beton kanallar təmir edilmiş, daşqınların və sel sularının qarşısını almaq üçün çay məcrasında təmizləmə işləri görülmüşdür. 2019-cu ildə Prezidentin müvafiq sərəncamına əsasən rayonun Xaqani, Qırıxlı, Balçılı, Quşqara və Səmədli kəndlərinin hərəsində bir, Yeni Qızılca kəndində iki subartezian quyusu qazılaraq istifadəyə verilmişdir.

İribuynuzlu mal-qaranın sayı 20704 başa, xırda buynuzlu davarların sayı 153984 başa çatdırılmışdır. Heyvandarlar 3866,2 ton ət, 19448,8 ton süd istehsal etmişlər.





Rayonda sahibkarlığın inkişafına yaradılmış münbit şərait nəticəsində hüquqi şəxslərin sayı 594 nəfərə çatmışdır. Aqrar sahənin inkişafı üçün Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 14 sahibkara 1 milyon 104 min manat məbləğində güzəştli kredit verilmişdir.

İstehsal və xidmət sahələrinin genişləndirilməsi, sosial obyektlərin tikilməsi, abadlıq və quruculuq işlərinin aparılması istiqamətində həyata keçirilən tədbirlər davam etdirilmiş, iqtisadiyyatın dinamik inkişafı təmin olunmuşdur. 2019-cu ildə 1325 yeni iş yeri açılmışdır ki, onun da 668-i daimidir. Sənaye müəssisələrində və bu sahədə fəaliyyət göstərən fiziki şəxslər tərəfindən məhsul istehsalı və xidmətlərin göstərilməsi əvvəlki ilin müvafiq dövrünə nisbətən 87 faiz artaraq 31 milyon 883,5 min manat olmuşdur. Sənayedə qeyri-dövlət sektorunun payı 86 faiz təşkil etmişdir.

Abadlıq işlərinin sürəti də xeyli artırılmışdır. Şəhərin Mikayıl Müşfiq və İsrafil Məmmədov küçələrinə asfalt-beton örtüyü salınmış, suötürücü arxlar inşa edilmiş, Dövlət Mənzil Fondunun vəsaiti ilə 10 bina təmir olunmuşdur.








Dövlət başçısının tapşırığına əsasən, rayon rəhbərliyi kəndlərdə sakinlərlə mütəmadi görüşlər keçirir. Qızılqaya qəsəbəsində keçirilən görüşdən sonra sakinlərin arzusuna uyğun yenidənqurma işləri aparılmış, bura nümunəvi qəsəbəyə çevrilmişdir. Başqa sözlə, qəsəbədə çoxmənzilli 3 binanın fasad hissəsi rənglənmiş, idman meydançası və istirahət yerləri yaradılmış, oturacaqlar qoyulmuş, işıqlandırma sistemi yenidən qurulmuş, 600-dən çox ağac və gül kolları əkilmişdir.

Əhalinin mavi yanacaqla təmin olunması üçün xətlərdə və qazpaylayıcı şkaflarda təmir işləri aparılmış, Nadil kəndində, Qızılqaya qəsəbəsində köhnə borular yenisi ilə əvəz edilmiş, Üçtəpə kəndinə yeni qaz xətti çəkilmişdir. Bundan başqa, Aşağı Zurnabad qəsəbəsi qazlaşdırılmış, 45 abonentin mənzilinə sayğac qoyulmuşdur.

Bir sözlə, qazanılan nailiyyətlər, görülən abadlıq işləri Göygöl rayonunu ildən-ilə gözəlləşdirir. Nəticədə yuxarıda qeyd etdiyimiz kimi, öz füsunkar təbiəti ilə insanlara zövq verən Göygölə gələn yerli və xarici turistlərin sayı artır. Bu da rayon iqtisadiyyatına əlavə gəlir gətirir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## Naxçıvan Muxtar Respublikasında 2019-cu ilin quruculuq ərməğanları

2019-cu ildə Naxçıvan Muxtar Respublikasında genişmiqyaslı quruculuq işləri aparılıb, şəhər və rayonlarda müasir binalar tikilib. Tikinti-quruculuq işləri aparılarkən müasirliklə milliliyin vəhdəti əsas götürülüb. Bütün bunların nəticəsidir ki, Naxçıvan şəhərində, rayon mərkəzlərində və kəndlərdə aparılan geniş tikinti-quruculuq, abadlaşdırma işləri, yolların və körpülərin tikintisi yaşayış məntəqələrinin simasını tamamilə dəyişib, gözəlləşdirib.

Muxtar respublikada müxtəlif təyinatlı binaların tikintisi və ya bərpa olunaraq yenidən qurulması qədim Naxçıvanı daha da gözəlləşdirməklə yanaşı, həm də ölkəmizin sosial-iqtisadi inkişafını təcəssüm etdirir.

Qeyd edək ki, 2019-cu ildə Naxçıvanda bütün maliyyə mənbələrindən əsas kapitala 1 milyard 29 milyon 283 min 900 manat vəsait yönəldilib. Bu da bir il öncəki göstəricidən 1,2 faiz çoxdur. Bu göstərici ölkənin digər iqtisadi rayonları ilə müqayisədə Naxçıvan Muxtar Respublikasında əsas kapitala vəsait qoyuluşlarının həcminin daha çox olduğunu deməyə əsas verir.

Vəsait qoyuluşlarının 965 milyon 410 min manatı və ya 93,8 faizi tikinti-quraşdırma işlərində istifadə edilib. Bu da bir il öncəki göstəricidən 1,9 faiz çoxdur.

2019-cu ildə muxtar respublikada 271 müxtəlif təyinatlı obyekt tikilib, yenidən qurulmuş və ya əsaslı təmir olunub, 159 müxtəlif təyinatlı obyektin tikintisi, yenidən qurulması və ya əsaslı təmiri davam etdirilib.

Yaşayış məntəqələrinin abadlaşdırılması, səmərəli idarəetmənin və əhaliyə göstərilən xidmətlərin səviyyəsinin yüksəldilməsi tədbirlərinə uyğun olaraq 2019-cu ildə 10 kənd mərkəzi istifadəyə verilib, 3 kənd mərkəzinin inşası davam etdirilib. Bundan əlavə, Ordubad rayonunda dövlət qurumları üçün inzibati binanın və Ordubad Rayon İcra Hakimiyyətinin inzibati binasının yenidən qurulması başa çatdırılıb.

Yaşayış məntəqələri 500 ədəd məişət tullantıları konteynerləri ilə təmin edilib, Culfa şəhərində qazanxananın tikintisi başa çatdırılıb.

Muxtar respublikada 2 yaşayış binasının tikintisi, 11 yaşayış binasının yenidən qurulması başa çatdırılıb, 5 yaşayış binasının tikintisi, 3 yaşayış binasının yenidən qurulması davam etdirilib. Bundan əlavə, Naxçıvan şəhərində "Gənclər Yaşayış Kompleksi"nin tikintisi, tələbə yataqxanasının yenidən qurulması davam etdirilib.

Əhalinin həyat səviyyəsinin yaxşılaşması fərdi yaşayış evlərinin tikintisinə də müsbət təsir göstərib. 2019-cu ildə muxtar respublikada əhalinin şəxsi vəsaiti hesabına, ümumilikdə, 379 min 157 kvadratmetr yaşayış sahəsi istifadəyə verilib ki, bu da bir il öncəki göstəricidən çoxdur.

2019-cu ildə Zeyvə və Düdəngə kəndlərində içməli su şəbəkəsinin tikintisi, Babək rayonunun Gülşənabad, Ordubad rayonunun Vənənd və Şahbuz rayonunun Türkeş kəndlərində içməli su xətlərinin çəkilişi başa çatdırılıb.

Babək, Ordubad, Kəngərli və Sədərək rayon mərkəzlərində və ətraf kəndlərdə içməli su təchizatı və kanalizasiya sistemlərinin, Şərur rayonunda sutəmizləyici qurğunun və Cəlilkənddə içməli su şəbəkəsinin tikintisi davam etdirilib.

## Saatlıda pambıq sahələrində şum işləri yekunlaşmaq üzrədir



Saatlıda ötən ilin dekabr ayından pambıq sahələrində əkin üçün başlanan şum işləri artıq yekunlaşmaq üzrədir.

Rayon Dövlət Aqrar İnkişaf Mərkəzindən bildirirlər ki, bu günə kimi rayonda 11 min 931 hektar sahədə şum aparılıb, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 100 hektar çoxdur.

Havaların əlverişli keçməsindən istifadə edən fermer və torpaq mülkiyyətçiləri şum kampaniyasını qısa müddətdə başa çatdırmaq üçün bütün imkanlardan yararlanırlar. Gələcək bol məhsulun bünövrəsinin məhz bu dövrdə qoyulduğunu bilən əkinçilər işin gedişinə ciddi nəzarət edirlər. Fermerlər strateji sahə olan pambıqçılığı inkişaf etdirmək və bol məhsul götürmək üçün pambıq sahələrini genişləndirməklə yanaşı, növbəli əkin sisteminə də üstünlük verirlər. Əkinçilər bundan sonra daha 1694 hektar sahədə şum aparılmasını nəzərdə tuturlar.

Qeyd edək ki, ötən il rayonda 13 min 741 hektar pambıq sahəsindən 41 min 813 ton pambıq istehsal olunub.

***AZƏRTAC***

## "Mingəçevir Tekstil"in məhsulları Rusiya, Türkiyə, Portuqaliya, Belçika, Ukrayna, Polşa və Pakistana ixrac olunub

"Mingəçevir Tekstil" artıq bir brendə çevrilib. Fabriklərimizdə istehsal olunan ipliklərin Open End və Ring növlərinə dünyada böyük tələbat var. Qısa bir zamanda istehsal etdiyimiz yüksəkkeyfiyyətli pambıq ipliklərin xarici bazarlara ixracına başladıq. 2018-ci ildə istehsala başlayan müəssisəmiz elə həmin il 4 min tona yaxın - təqribən 16 milyon manatlıq keyfiyyətli məhsul istehsal etdi ki, bunun da 13 milyon manat dəyərində olan 3 min tonu, yəni təqribən 80 faizindən çoxu ixrac olundu.

Bunu Mingəçevir Sənaye Parkındakı "Mingəçevir Tekstil" MMC-nin direktoru Mehman Hüseynov "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının birinci ilinin yekunlarına həsr olunan konfransda deyib.

Mehman Hüseynov bildirib ki, 2019-cu ildə ümumi satış 6 min tonu Open End və 6 min tonu Ring növündə olmaqla, 12 min ton təşkil edib. Bunun da 2 min tonu daxili, 10 min tonu - təqribən 83 faizi isə xarici bazarda satılıb. Beləliklə, daxili bazara satış 7 milyon manat, ixrac isə 39 milyon manat olmaqla, ümumilikdə, 2019-cu ildə 46 milyon manat təşkil edib. Məhsullar Rusiya, Türkiyə, Portuqaliya, Belçika, Ukrayna, Polşa və Pakistana ixrac olunub.

"Fabriklərin istifadəyə verilməsi ölkədə yüngül sənayenin, xüsusilə də tekstil sənayesinin inkişafına, yerli istehsal müəssisələrinin davamlı, keyfiyyətli və ucuz xammalla təmin olunmasına, eləcə də istehsal edilən pambığın hazır məhsula çevrilərək ixracına şərait yaradıb. Bu isə ölkəmizə əlavə xarici valyutanın daxil olması deməkdir. Həmçinin fabriklərimiz sənaye sahəsində idxaldan asılılığın azaldılması, ixrac potensialının artırılması, milli tekstil brendlərinin yaradılması, ixtisaslı kadrların hazırlanması və yeni iş yerlərinin açılması baxımından xüsusi əhəmiyyət kəsb edir. Hazırda fabriklərimizdə üçnövbəli iş rejimində 700 nəfərdən çox işçi çalışır", - deyə o bildirib.

## Xınalığa alternativ yol çəkilir

Ölkənin şimal qapısı sayılan Qubanın təkcə iqtisadiyyatı deyil, infrastrukturu da sürətlə inkişaf edir. Avtomobil yollarının əsaslı təmiri, rayonun təbii qaz təchizatının yaxşılaşması və digər vacib infrastrukturunun yenidən qurulması istiqamətində tədbirlər həyata keçirilir.





Əsasən dağlıq ərazilərdən ibarət olan Qubada çəkilən yolların demək olar yarıdan çoxu təbii amillərin təsiri ilə tədricən sıradan çıxır. Qışda qar uçqunları, yağışlı aylarda torpaq sürüşmələrinin baş verməsi nəticəsində yollar bəzən keçilməz olur. O cümlədən sürüşmə və iri qaya parçalarının yola tökülməsi ölkənin cəlbedici turizm marşrutlarından olan, 2007-ci ildə istifadəyə verilmiş Quba-Xınalıq avtomobil yolunun tez-tez bağlanması ilə nəticələnir və bu da həmin yolun üstündə yerləşən bir neçə yaşayış məntəqəsinin ətraf ərazi ilə əlaqəsini kəsir. Hətta bəzi kəndlərlə əlaqə yalnız qar əriyəndən sonra normallaşır. Bu səbəbdən Xınalıq kəndinin ölkəmizdə turizm üçün əhəmiyyəti və əhalinin alternativ yolla rahat gediş-gəlişinin təmin edilməsinin vacibliyi baxımından Quba-Susay avtomobil yolunun davamı olaraq əlavə 30 kilometrlik Susay-Xınalıq, həmçinin sözügedən yoldan 4,8 kilometr məsafədə dağlıq ərazidə yerləşən Qrız kəndinə gedən avtomobil yollarının tikintisi zərurəti yaranmışdı.

Ölkə rəhbərinin ötən ilin oktyabrında imzaladığı sərəncama əsasən, artıq Susay-Xınalıq avtomobil yolunun tikintisinə başlanılıb və qısa müddətdə xeyli işlər görülüb. Quba-Qusar yolundan Alpan, Uzunmeşə, Susay kəndlərinə gedən istiqamətdə min kubmetrlərlə torpaq işləri aparılıb, sərt döngələr yarılaraq hamarlanıb, yol yatağı genişləndirilib, Xucbala-Alpan yolunun müəyyən hissəsinə birinci qat asfalt döşənib. Yol üzərindəki respublika əhəmiyyətli Quba-Qusar avtomobil yolunun 9-cu kilometrindən ayrılan Alpan-Kürgün-Susay istiqamətində görülən işlər isə başa çatdırılıb.

Quba-Susay-Xınalıq avtomobil yolunun uzunluğu 24 kilometrdir. Layihə çərçivəsində yol 2 hərəkət zolaqlı olmaqla yüksək texniki dərəcəyə uyğun çəkilir. Yolun torpaq yatağının eni 10 metrdir. Yol yatağının deformasiyaya uğramış yararsız qurunt təbəqəsi qazılaraq çıxarılmış, əvəzində yararlı quruntla kipləşdirilmişdir. Bəzi yerlərdə isə yeni yol yataqları inşa edilmişdir. Həmçinin Alpan-Kürgün-Susay avtomobil yolunda bir düzbucaqlı su keçidi və 2 körpü inşa olunmuşdur. Körpülərin hər biri iki aşırımlıdır.



Layihənin növbəti mərhələsi üzrə Alpan-Kürgün-Susay yolunun davamı olan 30 kilometrlik Susay-Xınalıq yolundan 8 kilometr məsafədə dağlıq ərazidə yerləşən Qrız kəndinə gedən yolun tikintisinə də başlanılıb. Bu işlər üzrə Susay-Xınalıq marşrutunda torpaq yatağının hazırlanması işləri yekunlaşıb. Tezliklə beton örtüyün döşənməsinə başlanacaq.

Bundan başqa, layihədə sel, qar, yağış sularının yol yatağından kənarlaşdırılması üçün bir suötürücüsünün və 2 körpünün tikintisi də nəzərdə tutulub. Yolun uzunluğu 58,8 kilometr olacaq. Tikinti işləri çətin relyefə və iqlimə malik ərazidə aparılır.

8 minə yaxın əhalinin yaşadığı, 8 yaşayış məntəqəsini birləşdirən 5 min illik tarixə malik Xınalıq kəndi dəniz səviyyəsindən 2350 metr yüksəklikdə yerləşir. Yeni yolun tikintisi Xınalıq kəndini Quba-Qusar avtomobil yolu ilə birləşdirərək sərnişin və yükdaşımaların yaxşılaşmasına imkan verəcək, əlavə turizm marşrutları yaradacaq.

Yolun tikintisi bu ilin sonunadək başa çatacaq.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

# İŞİMİZ, GÜZƏRANIMIZ

## “Azərbaycan kosmik dövlətə çevrilib”

Bunu Prezident İlham Əliyev regionların sosial-iqtisadi inkişafı dördüncü Dövlət Proqramının icrasının birinci ilinin yekunlarına həsr olunan konfransdakı nitqində vurğulayıb.

Dövlət başçısı bu barədə danışarkən diqqətə çatdırmışdır ki, indi bizim üç peykimiz var: “16 il bundan əvvəl bu, bəlkə də bizim yuxumuza da girməzdi. Amma bu gün bu, reallıqdır”. İki ildən sonra Dünya Astronavtika Konqresi üzvlərinin Bakıda toplaşacağından danışan Prezident qeyd etmişdir ki, bu tədbir Bakıda ikinci dəfə keçiriləcək. Birinci tədbirin paytaxtımızda 1973-cü ildə - Azərbaycanın SSRİ tərkibində olduğu müddətdə keçirildiyini xatırladan İlham Əliyev demişdir: “İndi bu tədbir yenə də Bakıda, amma müstəqil Azərbaycan dövlətinin paytaxtı olan Bakıda keçiriləcək”.

## Naxçıvan MR-də 350 növdə məhsula olan tələbat yerli istehsal hesabına ödənilir

“Muxtar respublikada kiçik və orta sahibkarlığın inkişafı iqtisadi siyasətin prioritet istiqamətinə çevrilib”. Bunu “Naxçıvan duz istehsalı” MMC-nin direktoru Anar Əsədullayev deyib.

O bildirmişdir ki, muxtar respublikada ÜDM istehsalı üzrə özəl bölmənin payı 88 faizdən çoxdur. Hazırda Naxçıvan MR-də məşğul əhalinin 84 faizə yaxınının özəl sektorda çalışdığını nəzərə çatdıran A.Əsədullayev qeyd etmişdir ki, bu gün muxtar respublikada sənaye məhsulu istehsalının 95, tikintidə görülən işlərin 85, kənd təsərrüfatının 98, ticarət və ictimai iaşənin 100 faizi özəl bölmənin payına düşür. “Hazırda muxtar respublikada 380 növdə məhsul istehsal olunur, 350 növdə məhsula olan tələbat tamamilə yerli istehsal hesabına ödənilir” deyə MMC-nin direktoru bildirmişdir.

## Keçən il Qəbələyə 45 ölkədən 121 min əcnəbi turist gəlmişdir

Bu barədə Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev dördüncü regional inkişaf proqramının icrasının birinci ilinin yekunlarına həsr olunan konfransda məlumat vermişdir.

RİH başçısı bildirmişdir ki, ötən il rayondakı 2500 yerlik 16 hotel və mehmanxana tipli müəssisələrdə 186 mindən çox yerli və əcnəbi turistlərə xidmət göstərilib. Bir o qədər də turistin fərdi evlərdə qaldığını deyən S.Abdullayev məlumat verib ki, gələn turistlərin 65 faizi, yəni 121 min nəfəri dünyanın 145 ölkəsinin vətəndaşı olmuşdur.

Natiq onu da vurğulamışdır ki, Qəbələ bu gün təkcə yerli və xarici turistlərin sevimli istirahət mərkəzi deyil, həm də dövlət başçısının iştirakı ilə keçirilən beynəlxalq görüşlərin, sammitlərin, mötəbər idman və mədəniyyət tədbirlərinin keçirildiyi bir məkandır. İslam Əməkdaşlıq Təşkilatının turizm nazirlərinin Banqladeşin Dəkkə şəhərində keçirilən 10-cu konfransda Qəbələ şəhərinin 2020-ci il üçün “İslam Turizm Paytaxtı” seçilməsini deyən S.Abdullayev qeyd etmişdir ki, cari il İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin turizm nazirlərinin 11-ci konfransının Qəbələdə keçirilməsi nəzərdə tutulur.

## Geniş beynəlxalq əməkdaşlıq layihəsi




### “Cənub qaz dəhlizi” Məşvərət Şurasının növbəti iclası da Bakıda keçiriləcək

Əvvəli 1-ci səh.

Layihənin ehtiyat mənbəyi olan “Şahdəniz” yatağının işlənməsinin ikinci mərhələsi çərçivəsində qaz hasil edildi. Mavi yanacağı Azərbaycanın və Gürcüstanın ərazisi ilə nəql edən Cənubi Qafqaz Boru Kəməri (CQBK) genişləndirildi. Türkiyə ərazisində 1900 kilometr məsafə boyu uzanan, “Cənub qaz dəhlizi”nin birləşdirici halqası sayılan TANAP istismara verildi. Kəmərlə Türkiyəyə qaz ixracına başlandı.

2019-cu ilin fevral ayında keçirilən beşinci toplantının əhatə dairəsi daha geniş oldu. Bu tədbirdə iştirakçı ölkələrin səlahiyyətli nümayəndələrindən əlavə, Macarıstandan, Rumıniyadan, Serbiyadan, San-Marinodan və Türkmənistandan gələn qonaqlar da iştirak etdilər. Bu da layihəyə maraq göstərən dövlətlərin sayının artması deməkdir.

Sözügedən toplantıda Azərbaycanın təşəbbüskarı olduğu bütün enerji layihələrinin, xüsusilə “Cənub qaz dəhlizi”nin reallaşmasında Amerika Birləşmiş Ştatları hökumətinin göstərdiyi davamlı dəstək də vurğulandı. Eləcə də layihədə fəal iştirak edən şirkətlərin böyük əməyi qeyd edildi. SOCAR-BP tərəfdaşlığı yüksək dəyərləndirildi. Beynəlxalq maliyyə qurumlarının layihəyə yaxından dəstək göstərdiyi bildirildi.

Keçənilki toplantıdan sonra da layihənin həyatında mühüm hadisələr baş verib. Dəhlizin sonuncu seqmenti olan Trans-Adriatik Qaz Boru Kəmərinin (TAP) çəkilişi irəliləyərək 91 faizi ötüb. TANAP-la Türkiyəyə qaz ixracının həcmi artıb. TANAP-ın ikinci hissəsi də tamamlanıb və kəmər artıq Avropa sərhədinə çatıb.

“Cənub qaz dəhlizi” Azərbaycanın yaratdığı mükəmməl beynəlxalq əməkdaşlıq və tərəfdaşlıq sayəsində gerçəkləşən layihədir. Burada yeddi ölkə - Azərbaycan, Gürcüstan, Türkiyə, Albaniya, Yunanıstan, Bolqarıstan və İtaliya iştirak edir. Məşvərət Şurasının beşinci toplantısında qeyd edilib ki, Azərbaycan Bosniya və Herseqovina, Xorvatiya və Monteneqro ilə Avropada enerji sahəsində əməkdaşlığın genişləndirilməsinə dair anlaşma memorandumu imzalayıb. Bunun nəticəsində ölkəmiz enerji resurslarının nəqlinin şaxələndirilməsi üçün müasir və yeni infrastruktur şəbəkəsi yaradacaq.

Toplantıda çıxış edən Prezident İlham Əliyev “Cənub qaz dəhlizi”nin enerji təhlükəsizliyi və beynəlxalq əməkdaşlıq layihəsi olduğunu vurğulayaraq onun həm də enerjinin şaxələndirilməsində mühüm rol oynadığını qeyd etmişdir: “Enerji resurslarının şaxələndirilməsi istehsalçı, istehlakçı və tranzit ölkələr üçün çox vacibdir. Hesab edirəm ki, biz burada yaxşı balans tapa bilmişik - yəni istehsalçı olan Azərbaycan və istehlakçı və tranzit dövlətlər arasında. Maraqların balansı bu layihənin uğurunu şərtləndirir. Çünki biz bir-birimizin ehtiyac və narahatlıqlarını anlamağa çalışırıq. Çalışmışıq ki, bir-birimizi dəstəkləyək, zənnimcə, bu işdə uğurlu olmuşuq və belə toplantıların əhəmiyyəti olduqca böyükdür. Çünki biz il ərzində görülən işləri nəzərdən keçirir, eyni zamanda gələcək addımlarımızı planlaşdırır və işimizin irəlilədilməsi məqsədilə il ərzində ikitərəfli və çoxtərəfli görüşlər, məsləhətləşmələr və konfranslar keçiririk”.

“Cənub qaz dəhlizi” artıq mənzil başına yaxınlaşmaqdadır. Yaxın günlərdə Məşvərət Şurasının Bakıda toplaşacaq üzvləri də məhz keçilmiş yola nəzər salacaq və qarşıda duran vəzifələr ətrafında fikir mübadiləsi aparacaqlar. Bu da mühüm tarixi hadisəyə - “Cənub qaz dəhlizi”nin tam işə düşməsinə yeni bir təkan verəcək.

Təsadüfi deyil ki, regionların sosial-iqtisadi inkişafına yönəldilən dördüncü Dövlət Proqramının birinci ilinin yekunlarına həsr olunan konfransda Prezident İlham Əliyev “Cənub qaz dəhlizi”nin uğurla həyata keçirilməsində beynəlxalq əməkdaşlığın və layihənin Məşvərət Şurasının rolunu bir daha vurğulayıb: “Cənub qaz dəhlizi”. Bu da Avropanın ən böyük infrastruktur layihələrindən biridir, bunun təxminən 40 milyard dollar maliyyəsi vardır. Bir neçə ölkəni birləşdirir, 3500 kilometr uzunluğunda dörd seqmentdən ibarət nəhəng layihədir. Burada həm siyasi məharət, həm diplomatik addımlar, həm iqtisadi gücümüz, həm də beynəlxalq banklarla əlaqələrimiz, bu yol boyu yerləşən ölkələrlə səmərəli əməkdaşlığımız, bütün bunlar rol oynayıb. Bu layihəni həyata keçirmək üçün nə qədər çətinliklər olub. Amma biz bunu başa çatdırmışıq. Təşəbbüskar da Azərbaycandır. Artıq bir neçə ildir ki, Azərbaycanda ənənəvi olaraq “Cənub qaz dəhlizi” Məşvərət Şurası keçirilir. Növbəti şuranın toplantısı bu ayın sonunda keçiriləcək”.

***Flora SADIQLI,***
***“Azərbaycan”***

## Qadın fermerlərə dəstək verilir

AFAQ layihəsi çərçivəsində Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində “Aqrar Tədarük və Təchizat” ASC və BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının Azərbaycan Ofisinin (“Food and Agriculture Organization”) birgə təşkilatçılığı, layihə tərəfdaşlarının və layihəyə qoşulan qadın fermerlərin iştirakı ilə ilkin planlama seminarı keçirilib.

Seminarın təşkilində əsas məqsəd layihə tərəfdaşları ilə iş planı üzrə interaktiv müzakirələr aparmaq, tərəfdaşların rolu və məsuliyyətləri daxil olmaqla institusional tənzimləmələrin həyata keçirilmə qaydalarını aydınlaşdırmaqdır.

Tədbirdə çıxış edənlər bildiriblər ki, artıq müxtəlif regionlarda qadın fermerlərlə görüşlər keçirilib, onların ehtiyacları müəyyənləşdirilib. Həmçinin qeyd olunub ki, AFAQ qida təhlükəsizliyinə və kənd yerlərində sosial rifahın yaxşılaşmasına töhfə verəcək, regionlarda yaşayan qadın fermerlərin informasiya və maliyyə resurslarına əlçatanlığına eyni dərəcədə şərait yaradacaq. Qadın fermerlərə təlim və konsultasiya ilə yanaşı, texniki dəstək də göstəriləcək.

Qeyd olunub ki, AFAQ fermer qadınların maddi gəlirlərini artıraraq kənd icmalarının iqtisadi inkişafına nail olacaq. Belə ki, tərəşdaş qurumlar qadın fermerlərin təsərrüfatlarında istehsal olunan məhsulların satışına da dəstək göstərəcək. Həmçinin tədbirdə layihəyə növbəti bir il ərzində müraciətlərin qəbulunun da davam edəcəyi bildirilib.

Məlumat üçün bildirək ki, AFAQ layihəsinin icrasına ötən ilin sonundan başlanılmışdır. Layihə aqrar sahədə çalışan qadınların dəstəklənməsi, bu sahədə gender bərabərliyinin təmin olunması, regionlarda məşğulluğun artırılması, eləcə də kənd yerlərində yaşayan insanların sosial rifahının yüksəldilməsi məqsədilə həyata keçirilir.

## Dəmir yolunun Gəncə-Böyük Kəsik istiqamətində 171 yoldəyişən qurğu qoyulacaq

Dəmir yolunun Gəncə-Böyük Kəsik istiqamətində ümumilikdə 171 yoldəyişən qurğunun qoyulması nəzərdə tutulur.



“Azərbaycan Dəmir Yolları” QSC-dən AZƏRTAC-a bildirilib ki, prosesə ötən il avqustun əvvəlində başlanılıb və bu günə qədər 119 yoldəyişən yenilənib. Fevralın 5-də Tovuz stansiyasında daha 6 yoldəyişənin yenilənməsi planlaşdırılır. Prosesi QSC-nin 5 və 11 saylı İxtisaslaşmış Dəmir Yolu Müəssisələri icra edir.

Yoldəyişən qurğular dəmir-beton tirlər üzərində qoyulur ki, bu da hərəkətin təhlükəsizliyinin daha yüksək səviyyədə təmin edilməsi baxımından çox əlverişlidir və sürətin artırılmasına imkan verir. Yeni yoldəyişənlər üzərindən hərəkət edən qatarlar bir yoldan digərinə təhlükəsiz şəraitdə keçəcək.

# İqtisadi artımın dayanıqlığı əsasən investisiya qoyuluşu ilə bağlıdır

### Ötən il ölkə üzrə sərmayə yatırımının həcmi 17,1 milyard manatdan çox olmuşdur

Əvvəli 1-ci səh.



Misal üçün, yeni infrastruktur tutaq ki, bu və ya digər rayonda iqtisadiyyatın real sektoruna nə dərəcədə müsbət təsir göstərmişdir”.

Həmin müşavirədə İqtisadiyyat naziri Mikayıl Cabbarov bildirdi ki, iqtisadi inkişafı təmin etmək üçün real sektora istər dövlət sərmayələrinin, istərsə də özəl sərmayənin cəlb edilməsini əsas şərt kimi görür. Dünyanın iqtisadi tarixi və Azərbaycanın yaxın keçmişdəki təcrübəsi göstərir ki, iqtisadi artımın sürəti və dayanıqlığı investisiya qoyuluşu ilə bağlıdır. Ötən il əsas kapitala investisiyaların ümumi daxildəki payı 23,2 faiz təşkil edib. Cari ildə bu rəqəmin 25 faizə çatdırılması nəzərdə tutulub. Digər əsas faktor isə dövlət investisiyalarının iqtisadi səmərəliliyinin artırılması, həmçinin dövlət investisiyalarının resipiyentləri qarşısında səmərəlilik tələblərinin sərtləşdirilməsi və bu investisiyaların prioritet sektorların inkişafı ilə üzvi şəkildə uzlaşdırılmasıdır.

Dövlət Statistika Komitəsinin verdiyi məlumata görə, ötən il ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 17 milyard 184,3 milyon manat vəsait yönəldilib. Həmin dövrdə neft-qaz sektoruna yatırılan investisiya azalsa da, qeyri-neft sektoruna yönəldilən vəsaitin həcmi 1,9 faiz artıb.

Qeyd etdiyimiz kimi, son dövrlər real sektora daha çox investisiya yatırılır. Ötən il ümumi sərmayənin 11393,4 milyon manatı məhsul istehsalı sahələrinin investisiyalaşdırılmasına sərf edilib, 4432,6 milyon manatı xidmət sahələrinin, 1358,3 milyon manatı isə yaşayış yerlərinin tikintisinə yatırılıb. Statistik rəqəmlərdən aydın olur ki, ötən il qoyulan sərmayənin 66,3 faizi real sektora yatırılıb.

Hesabat dövründə ümumi sərmayənin 48,3 faizi dövlət, 51,7 faizi qeyri-dövlət sektoru sərmayədarları tərəfindən qoyulub. Həmin dövrdə sərmayə qoyuluşunda daxili mənbələrdən əsas kapitala yönəldilən vəsaitin dəyəri ümumi sərmayənin 69,8 faizini təşkil edib. Beləliklə, əsas kapitala yönəldilən sərmayədə müəssisə və təşkilatların vəsaitləri 8942,6 milyon manat, bank kreditləri 2061,8 milyon manat, büdcə vəsaitləri 4857,2 milyon manat, büdcədənkənar dövlət fondlarının vəsaitləri 207,6 milyon manat, əhalinin şəxsi vəsaitləri 980,9 milyon manat və s. vəsaitlər isə 134,2 milyon manat olub. Həmçinin ötən il əsas kapitala yönəldilən ümumi vəsaitin 50,2 faizi sənaye sektorunun inkişafı üçün qoyulub.

Dünyada baş verən məlum iqtisadi və siyasi səbəblərdən kapital qoyuluşu azalıb. Buna baxmayaraq, ölkəmizdə mövcud investisiya mühiti əcnəbilər üçün cəlbedici olaraq qalır. Bu üzdən hesabat dövründə xarici ölkələr və beynəlxalq təşkilatların vəsaitləri hesabına əsas kapitala yönəldilən vəsaitin 4344,7 milyon manatı və ya 83,7 faizi Birləşmiş Krallıq, Lüksemburq, Türkiyə, İsveçrə, ABŞ, Yaponiya, Malayziya, Rusiya, İran, Norveç və Fransa sərmayədarlarına məxsus olub.

***Rüstəm KAMAL,***
***“Azərbaycan”***

## Bu ay 12 rayonda əmək yarmarkasının keçirilməsi nəzərdə tutulur



Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti fevral ayında 12 şəhər və rayonda (Balakən, Göyçay, Lənkəran, Qəbələ, Şəki, Beyləqan, Gəncə-Nizami, Goranboy, Neftçala, Şamaxı, Tovuz, Sumqayıt) əmək yarmarkasının keçirilməsini planlaşdırır.

Əmək yarmarkalarında həmin bölgələrdəki idarə, müəssisə və təşkilatlarda olan vakant (boş) iş yerləri işsiz və işaxtaran vətəndaşlara təklif olunacaq. Onlara peşə və ixtisaslarına, əmək bacarıqlarına uyğun vakant iş yerlərinə göndərişlər veriləcək. Peşə və ixtisası olmayan, yaxud peşə bacarığına uyğun iş tapılmasında çətinlik yaranan şəxslər isə peşə hazırlığı kurslarına cəlb ediləcək.

Yarmarkalar zamanı işsiz və işaxtaranların istəkləri əsasında onların ödənişli ictimai işlərə, müvafiq potensialları olan şəxslərin özünüməşğulluq proqramına cəlb edilmələri üçün qeydiyyatı da aparılacaq.

Məlumat üçün bildirək ki, ümumilikdə cari il ərzində ölkənin 58 şəhər və rayonunda 100 əmək yarmarkasının təşkili nəzərdə tutulur.

## Cari il regionlarda DOST mərkəzləri, yeni sosial xidmət və reabilitasiya müəssisələri yaradılacaq

**“Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illər üzrə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın birinci ilinin yekunlarına həsr olunmuş konfransın iqtisadiyyat üzrə panel iclasında Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev bu ildən ölkəmizin regionlarında da DOST mərkəzlərinin yaradılacağını deyib.**

Cari il bölgələrimizdə həmçinin yeni sosial müəssisələrin istifadəyə veriləcəyini deyən nazir bildirib ki, Prezident İlham Əliyevin fərmanına əsasən ötən il Bakının Yasamal və Xəzər rayonlarında DOST mərkəzləri yaradılıb. 2020-ci ildə DOST mərkəzləri şəbəkəsinin ölkəmizin regionları üzrə genişləndirilməsinə başlanacaq. Regionlarda (Abşeron, Sumqayıt, Bərdə, Quba, Sabirabad) 5 mərkəzin təmir-tikinti işləri aparılacaq.

Ötənilki sosial islahatlardan bəhs edən S.Babayev əhalinin gəlirlərinin ciddi artımını təmin edən həmin islahatların uğurlu nəticələrinin, ümumən sosial müdafiə və aktiv məşğulluq proqramlarının regionların əhalisini də geniş şəkildə əhatə etdiyini deyib. Bildirib ki, ötən il şəhid ailələrinə və müharibə əlillərinə nazirlik tərəfindən 2018-ci illə müqayisədə 50 faiz çox olmaqla 934 mənzil, 2019-cu ildə nəzərdə tutulduğundan 3,2 dəfə çox olmaqla 600 avtomobil təqdim edilib. Həmin mənzillərdən 550-si, avtomobillərdən isə 480-i regionların sakinlərinə verilib: “Bu il isə Prezident İlham Əliyevin tapşırığına əsasən müharibə əlillərinə və şəhid ailələrinə 1500 mənzil və fərdi evin verilməsi nəzərdə tutulub ki, onların da əksəriyyəti regionların paylna düşür”.

S.Babayev bu il regionlarımızda əlilliyi olan şəxslər üçün daha 5 bərpa mərkəzinin (Xaçmaz, Şəki, Lənkəran rayonlarında, Şirvan və Sumqayıt şəhərlərində), 2 sosial xidmət müəssisəsinin (Göygöl və Şamaxı rayonlarında) əsaslı təmir və yenidənqurmadan sonra istifadəyə veriləcəyini deyib. O, həmçinin Şəmkir və Qəbələ rayonlarında uşaq bərpa, Quba və Bərdə rayonlarında isə peşə hazırlığı mərkəzlərinin yaradılmasının planlaşdırıldığını diqqətə çatdırıb.

Nazir onu da qeyd edib ki, aktiv məşğulluq proqramları bölgələrdə də uğurla davam etdirilir. Ötən il ƏƏSMN-nin yanında Dövlət Məşğulluq Xidməti tərəfindən işlə təmin olunan 103 mindən çox şəxsin 74200-dən, peşə hazırlığına



cəlb edilən 3200-ə yaxın şəxsin 1800 nəfərdən çoxu, peşəyönümü məsləhət xidmətinə cəlb olunan 107 700-ə yaxın gəncdən 91 400-ə yaxını regionlarda yaşayanlardır.

S.Babayev 2019-cu ildə özünüməşğulluq proqramına cəlb olunan 10 352 nəfərdən 8300-nün regionların sakinləri olduqlarını deyib. Bildirib ki, bu proqram çərçivəsində bölgələrdə əsasən kənd təsərrüfatı sahələri üzrə minlərlə kiçik müəssisənin yaradılması regionların sosial-iqtisadi inkişafına mühüm dəstəkdir.

“İşsizin DOSTu”ndan danışan nazir qeyd edib ki, həmin proqram çərçivəsində ötən il yaradılmış 38 min ödənişli ictimai iş yerindən 30 mini regionlarda açılmışdır. O, bu il də sözügedən proqramın davam etdiriləcəyini diqqətə çatdırıb.





# Mədəniyyət





Musiqi xadimləri

**Tanınmış musiqişünas, etnoorqanoloq və pedaqoq Səadət Abdullayeva 1940-cı il yanvarın 18-də Bakıda ziyalı ailəsində dünyaya göz açıb. Atası Abutalıb Abdullayev İçəri şəhərin "Ağşalvarlılar" məhəlləsindən idi. O, dövlət xadimi olub, Mənzil-Kommunal təsərrüfatı naziri vəzifələrində çalışıb, Azərbaycanın qazlaşdırılmasında xüsusi xidmətlər göstərib.**

**Səadət xanım onun üç qızından biri idi. Uşaqlar evdə musiqiyə böyük sevgi görüblər. Çünki valideynləri musiqini çox seviblər. Onların bu sevgisi övladlarına da təsir göstərib. Böyük qızları Sevil xanım orta təhsilini onillik musiqi məktəbində başa vurub. Səadət xanım və kiçik bacısı Gülnaz xanım isə musiqi sənətinə ömürlük bağlanıblar.**



## Sənətinin vurğunu

Səadət Abdullayevanı valideynləri 1947-ci ildə Azərbaycan Dövlət Konservatoriyası nəzdindəki orta ixtisas musiqi məktəbinə (indiki Bülbül adına orta ixtisas musiqi məktəbi) apardılar. 1957-ci ildə həmin məktəbi bitirib və Azərbaycan Dövlət Konservatoriyasına (indiki Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası) daxil olub. Həmin illərdə konservatoriyada yeni açılan Azərbaycan xalq musiqisi fakültəsini seçməsinin səbəbi isə xalq musiqisini çox sevməsi idi.

Tələbəlik illərində böyük bacısının təhsil aldığı Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) Biologiya fakültəsinin məşhur rəqqas Əlibaba Abdullayevin rəhbəri olduğu özfəaliyyət ansamblının tərkibində akkordeonda ifa edib. İştirak etdiyi ansambl fakültələr arasında keçirilən müsabiqədə qalib seçilib.

Tələbəlik illərində bəstələdiyi iki romansı Zəhra Rəhimovanın ifasında Azərbaycan Radio Verilişlərinin səsyazma studiyasında yazılaraq efirdə səslənib.

1962-ci ildə Səadət Abdullayeva Konservatoriyada Azərbaycan xalq musiqisi kafedrasının dosenti, Əməkdar incəsənət xadimi, bəstəkar Süleyman Ələsgərovun rəhbərliyilə yazdığı "Azərbaycan xalq çalğı alətləri" mövzusunda diplom işini uğurla müdafiə edib. O, Azərbaycan Dövlət Konservatoriyasını xalq musiqisi ixtisası üzrə bitirən ilk məzunlardan biri olub.

1962-ci ildə Azərbaycan Mədəniyyət Nazirliyinin nəzdindəki Memarlıq və İncəsənət İnstitutunun (sonralar Azərbaycan Milli Elmlər Akademiyasının tərkibinə keçirilib) Musiqi şöbəsində kiçik elmi işçi kimi əmək fəaliyyətinə başlayıb. Gənc mütəxəssis böyük həvəslə çalışıb. Daxil olduğu mühitin ab-havası onu yaradıcılığa daha da həvəsləndirib. Görkəmli rus bəstəkarı, pianoçusu və dirijoru Sergey Raxmaninova və məşhur İtaliya bəstəkarı Cüzeppe Verdiyə həsr etdiyi ilk məqalələrini təqdim edib.

Səadət Abdullayeva 1965-ci ilin mayında musiqi sənəti üzrə Memarlıq və İncəsənət İnstitutunun nəzdindəki aspiranturaya daxil olub. Azərbaycan xalq çalğı alətləri sahəsində araşdırmalar aparıb.

1968-ci ildə o, Gürcüstanın tanınmış musiqişünası, Vano Saracaşvili adına Tbilisi Dövlət Konservatoriyasının professoru Qriqori Çxikvadzenin rəhbərliyi ilə sənətşünaslıq üzrə namizədlik dissertasiya işini uğurla müdafiə edərək, milli çalğı alətləri üzrə ilk elmlər namizədi olub.

Səadət Abdullayeva 1971-ci ilin noyabrında Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasının Azərbaycan xalq musiqisi kafedrasında müəllim işləməyə başlayıb. Konservatoriyanın Azərbaycan xalq musiqisinin tarixi və nəzəriyyəsi kafedrasının müəllimi, baş müəllimi, dosenti olub. 1992-2017-ci illərdə o kafedrada professor vəzifəsinə yüksəlib. "Azərbaycan xalq yaradıcılığı", "Azərbaycan xalq musiqisinin əsasları", "Orkestrləşdirmə" üzrə mühazirələr, həmçinin həmin fənn üzrə məşğələ fənlərini tədris edib. Neçə-neçə musiqiçinin yetişməsində, bir çoxunun elmə gəlməsində Səadət Abdullayevanın əməyi böyük olub.

Ən məhsuldar musiqişünaslarımızdan sayılan Səadət Abdullayeva çalğı alətlərimizə aid on bir kitabın, yüzdən çox məqalənin müəllifidir. Onun milli musiqişünaslıq elminə verdiyi ən böyük töhfələrindən biri rus və Azərbaycan dillərində qələmə aldığı "Azərbaycan xalq çalğı alətləri (musiqişünaslıq və orqanoloji tədqiqat)" monoqrafiyası hesab edilir. Mütəxəssislərin qənaətincə, o, bununla Azərbaycan musiqişünaslığında alətşünaslığın metodoloji əsasını qoyub.

Araşdırmalarını, əsasən, musiqişünaslığımızda kifayət qədər tədqiq olunmamış məsələlərə yönəldib. Ona görə də bir sıra elmi yeniliklər Səadət Abdullayevanın adına yazılıb. O, Azərbaycan xalq çalğı alətləri üçün orklestrləşdirmənin metodik əsaslarını işləyib.

Əsasən milli çalğı alətlərimizin inkişaf tarixinin öyrənilməsi, quruluş, səslənmə və istifadə xüsusiyyətlərinin araşdırılması, onların türk məkanında oxşar alətlərlə müqayisəsi, gələcək inkişaf yolları ilə əlaqədar tədqiqatlar aparan alim respublikamızın ən ucqar kəndlərini belə qarış-qarış gəzib, nadir çalğı alətlərimiz haqqında məlumatlar toplayıb. Bakıda və rayon mərkəzlərində yerləşən muzeylərin eksponatları ilə tanış olub. Musiqi tariximizə yaxşı bələd olan, tanınmış, qocaman ifaçıların tütək, balaban, zurna, tulum, tar və sazda çalğılarından nota köçürdüyü xalq musiqisi nümunələrini Azərbaycan instrumental musiqisi kitabında əks etdirib.

Bakı Musiqi Akademiyasında 1992-ci ilin fevralından fəaliyyətə başlayan "Qədim Azərbaycan musiqi alətlərinin bərpası və təkmilləşməsi" elmi-tədqiqat laboratoriyasının əməkdaşı kimi sıradan çıxmış çalğı alətlərimizin quruluşlarını öyrənməklə onların bərpası üçün laboratoriyada aparılan işlərdə iştirak edib.

O, 2017-ci il martın 12-də Bakı şəhərində vəfat edib. Zamanın sınaqlarından çıxmış Azərbaycan çalğı alətlərinin öyrənilməsinə hələ konservatoriyada oxuyarkən göstərdiyi maraq, sevgi ömrünün sonunadək bitməyib. Tədqiqatçılar alimin musiqişünaslığımıza gətirdiyi elmi yenilikləri, alətşünaslığa, təsviri sənətə dair tövsiyələrini, musiqimiz və çalğı alətlərimizə aid fikirlərini yüksək qiymətləndirirlər. Doğma yurdunun zəngin mədəniyyətinin vurğunu olan Səadət Abdullayeva çalğı alətlərimizi və instrumental musiqimizi respublikamızda və onun hüdudlarından kənarda tanıtmaq istiqamətində böyük işlər görüb. Alim, musiqişünas, pedaqoq, Bəstəkarlar İttifaqının fəal üzvlərindən olmuş Səadət xanımın kitabları, tədqiqatları, dərslikləri, metodik vəsaitləri musiqi elmimizi zənginləşdirib. Onun tələbələri bu gün xalq musiqimizi layiqincə təmsil edir, yetişdirdiyi alimlər musiqi sənətimizin müxtəlif istiqamətləri üzrə elmi tədqiqatlarını davam etdirirlər.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

Muzeylərimiz

## Əsrlərin yadigarları "Əfsanələr paytaxtı"nda

### 3 minillik tarixi bugünədək saxlamış 14 mindən artıq mədəni, etnoqrafik eksponat Qəbələ Tarix-Diyarşünaslıq Muzeyinin fondunda qorunur

**XX əsrin 30-cu illərindən etibarən bir-birinin ardınca mahiyyətinə görə müxtəlif təmayüllü - dövlət, memorial, səyyar, ədəbiyyat, incəsənət, tarix, musiqi, qoruq, teatr muzeyləri yaradılıb. Lakin muzeylərin əlavə status almaları və yenilərinin yaradılması prosesi də dayanmayıb. Sonrakı illərdə Azərbaycanda yeni muzeylər fəaliyyət göstərib. Tarix-diyarşünaslıq muzeyləri isə xüsusilə böyük əhəmiyyət kəsb edib.**

Muzey işinin günün tələbləri səviyyəsində qurulması, ekspozisiyalarının zənginləşməsi, yeni texnologiyaların tətbiqi daim diqqət mərkəzindədir. Prezident İlham Əliyev tərəfindən 2006-cı ildə Mədəniyyət Nazirliyi qarşısında qoyulan vəzifələrdən biri də şəhər və rayonlarda tarix-diyarşünaslıq muzeyləri şəbəkəsinin genişləndirilməsi ilə bağlıdır. Prezidentin ölkədə muzey işinin yaxşılaşdırılması haqqında 2007-ci və 2009-cu illərdə imzaladığı sərəncamların icrası ilə bağlı bu istiqamətdə müəyyən tədbirlər həyata keçirilib. Hazırda Mədəniyyət Nazirliyinin tabeliyində fəaliyyət göstərən belə muzeylərin sayı 220-yə yaxındır. Onların 71-i tarix-diyarşünaslıq muzeyidir.

1980-ci ildən fəaliyyət göstərən Qəbələ Tarix-Diyarşünaslıq Muzeyi haqqında xüsusi söz açmağımızın isə səbəbi az deyil. Belə ki, bu qədim diyarın tarixini ziyarətə gələnlərə nümayiş etdirən muzey qiymətli eksponatlarla zəngindir. Xatırladaq ki, bu muzeyin yaradılması da Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır.

Əvvəllər müxtəlif ünvanlarda fəaliyyət göstərmiş muzeyin üzünə 2004-cü ildə gün doğub. Yeni binaya köçməklə muzeyin əməkdaşlarının xalqa xidmət mədəniyyəti də xeyli yüksəlib. Muzeyin həyəti də sanki ekspozisiyaya və açıq səma altında muzeyə çevrilib. Burada yüzədək daş abidə






Qəbələnin tarixi yaddaşı kimi ziyarətçiləri qarşılayır və bu, ulu insan məskənindən, xüsusən də Qafqazın ilk alban dövlətindən soraq verir. Burada 14 mindən artıq tarixi, mədəni, etnoqrafik eksponat var ki, bu da muzeyin fondunu və ekspozisiyasını bəzəyir. 3 minillik tarixi özündə qoruyub saxlayan eksponatlar muzeyə yerli əhali tərəfindən təmənnasız bağışlanılıb. Tarixən Qafqazın ilk dövlətinin paytaxtı olmuş Qəbələ bu gün öz inkişafına görə mədəniyyət paytaxtı kimi də tanınır və UNESKO-nun qərarı ilə paytaxt şəhərlər siyahısında özünə yer alıb.

Qəbələnin "Əfsanələr paytaxtı" seçilməsi heç də təsadüfi deyil. "Əfsanələr paytaxtı"nda il ərzində keçirilən mədəni-kütləvi tədbirlərdən biri də burada fəaliyyət göstərən xalq teatrında İsmayıl bəy Qutqaşınlının "Rəşid bəy və Səadət xanım" əsəri əsasında hazırlanmış tamaşanın göstərilməsi idi. Qəbələ son illər əcnəbi və yerli turistlərin ən çox diqqətini və marağını çəkən bölgələrimizdən sayılır. Bu rayonda təşkil edilən mədəni tədbirlər, eyni zamanda bölgənin tarixi, folklor və zəngin etnoqrafiyasının təbliği deməkdir.

Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə açılış mərasimi keçirilən Qəbələ Arxeoloji Mərkəzi də bu ulu yurdun tarixi və sirli keçmişindən soraq verdiyi üçün olduqca böyük əhəmiyyət daşıyır. Minilliklərin mənəvi və mədəni yadigarlarını qoruyan Qəbələ Tarix-Diyarşünaslıq Muzeyi də bu turizm bölgəsinin ziyarətçilərini heyran qoyan mədəniyyət mərkəzlərindən biridir.

*Məhəmməd NƏRİMANOĞLU,*
*Ağaəli MƏMMƏDOV (foto),*
*"Azərbaycan"*

Yaddaş xəzinəmiz

## Tarixi məlumat irsimizi qoruyan ünvan

**Hər bir cəmiyyət öz keçmişini - keçdiyi yolu əks etdirən özünəməxsus tarixi - sənəd irsinin xüsusi qəlibini hazırlayır. Bu qəlibdə "yatan yaddaşı" cəmiyyətə qaytarmaq və onu inkişafa təşviq etmək kimi kommunikativ əlaqəni yerinə yetirənlər isə arxivlərdir. Bu mənada unutmaq olmaz ki, arxiv fondları təkcə dövlətçiliyin vacib elementi deyil, həm də sosial yaddaşın və mədəniyyətin əhəmiyyətli bir hissəsidir.**






Arxivlər xalqın yaddaşı, yaddaşın əfsanələrdən azad, canlı və hüdudsuz təminatçısıdır. Tarixi yaddaşı olmayan bir xalqın qurduğu dövlətin varlığı da şübhə altında qalar. Bəsit bir həqiqət var: xatırlayırıqsa, demək həm də yaşayırıq.

Arxivlər tarix elminin özülüdür: sənədlərdə maddiləşən tarix öz tədqiqatçısına bir tərəfdən faktları əxz edir, eyni zamanda keçmiş həyatın rayihəsini hiss etdirməklə, ona ilham verir. Bu baxımdan arxivlər həm də idrakı funksiyanı əks etdirən mənbə bazasıdır.

Bu gün arxivlər, eyni zamanda məlumat prosesləri, resursları və sisteminin bir subyektidir. Onlar yalnız məlumatın qoruyucuları deyil, həm də tədarükçüləridir. Müasir həyatın çağırışına qoşulan arxiv sənədlərinə məlumat məhsulu kimi tələbat da çox genişdir. Bu isə məlumat təhlükəsizliyinin böhranlı vəziyyətə düşməməsi üçün həmin məhsul üzərində nəzarətin xarakteri, məqsədyönlülük və sərhədlilik məsələlərini aktuallaşdırır.

Arxivlərin qorunmasını tələb edən, onun daşıdığı olduqca vacib bir funksiya da var: dövlət simvolu funksiyası. Sözün həqiqi mənasında arxivlər heç bir tərəddüdsüz - himn, gerb və bayraq kimi, həm də bir dövlət simvoludur.

Mənə və məqsəd baxımından vacib olan bu məbəd əhalinin arxiv sənədlərində qorunan tarixi keçmişə aid məlumatlara olan tələbatının təmin edilməsinə xidmət edir. Hər bir arxivçi fəaliyyətini məhz bu məsələyə həsr etməlidir - bu onun peşə və ilk növbədə həm də bir vətəndaşlıq borcudur. Bu borc milli dəyərlər və yaddaşın qorunmasına xidmət göstərən tarixi mənbələrin - arxiv xəzinəsinin mühafizəsində təzahür edir. Bu funksiyanın uğurlu icrası isə bir sıra amillərlə şərtlənir: hüquqi normalar, kadrların peşəkarlığı, səriştəli və öz vəzifə borcuna sadiq müdiriyyət, arxiv xidmətinin cəmiyyətin gözündə nüfuzluluğu, həmçinin yaxşı təchizatlı bina, etibarlı mühafizə sistemi və s.

Azərbaycanda da bu xidmət sahəsinin tarixi maraqlı faktlarla zəngindir. XX əsrin əvvəllərində Azərbaycan tarixinin müəyyən səhifəsinə müstəqilliyimizə kölgə salan, əslində, onu əlimizdən alan bir işğal günü yazıldı - 28 aprel 1920-ci il! Bu, Azərbaycan Cümhuriyyətinin süquta uğradıldığı tarixdir. Həmin gün müstəqilliyinə təcavüz edilən Azərbaycan yeni - SSRİ adlanan bir imperiyaya ilhaq edildi və bununla da ölkədəki digər fəaliyyət sahələri kimi, arxiv işi də totalitar rejimə, onun öz qaydalarına uyğun xidmət göstərməyə başladı.

Beləliklə, ilk mərhələdə kargüzarlıq mühitində obyektiv fəaliyyət amili kimi sənədlərin toplanması ilə arxiv işi start götürdü: ayrı-ayrı sənədlərdən ibarət arxiv işləri formalaşdırıldı. Daha sonra dəftərxanaların ("qeydiyyat şöbələri") yanında idarə sənədləri toplanılmağa başlandı və s.

Sovet idarəçilik sisteminə keçid alan yeni hakimiyyət isə anlayırdı ki, inqilabaqədərki hakimiyyət institutlarının dağılması ilə arxiv işi sahəsində də baş alıb gedən ciddi anarxiya, xaos və nəzarətsizliyə son qoyulmadan, çoxsaylı arxiv xəzinəsini məhv olmaqdan və itirməkdən xilas etməyin mümkün olmayacağı şübhəsizdir. Bu nöqteyi-nəzərdən mövcud hakimiyyət mərkəzləşməyə çıxış yolu kimi baxırdı. Digər tərəfdən isə bu, totalitar rejimin bolşevik ideologiyasının həm də adekvat əksi idi: ölkəyə rəhbərliyin mərkəzləşdirilməsi arxiv işində də tətbiq edilirdi. Əslində isə baş verənlər zaman-zaman "məlumatın ötürülməsi" adlı bir fenomenin yaranmasına gətirib çıxarırdı. Bu prosesin məntiqi nəticəsi bir qədər sonra, arxiv sənədlərindən istifadə və onun mühafizəsinin ümumdövlət mərkəzləşdirilməsində təzahür etdi.

Sənədlərin idarə olunması sistemi isə totalitar dövlət çərçivəsində, idarəçiliyin mövcud prinsip və mexanizmləri əsasında həyata keçirilirdi.

Azərbaycanda bu yeni fəaliyyət sahəsinin - arxiv işinin formalaşdırılmağa başladığı mərhələdə mərkəzi hakimiyyətin arxivlərlə bağlı eksperimenti anlaşılmaz, qəribə və paradoksal təəssürat yaradırdı: "məxfi", "tamamilə məxfi" möhürü ilə yayılması qadağan edilən "xüsusi fond" sənədləri mövcud idi. Belə olan halda isə vahid arxiv fondu adı altında birləşdirilən sənəd xəzinəsi heç də "xalqın arxivi" statusunu qazana bilməzdi. Arxivlər partiyanın ideoloji nəzarəti altında, "siyasiləşdirilmiş" (ideoloji hərbiləşdirmə) "xidmət mühiti"ndə fəaliyyət göstərmək məcburiyyətində qalmışdılar.

Bu vəziyyətin təsiri ilə uzun illər arxiv işinin bir çox səhifəsi - xüsusilə Azərbaycanın cümhuriyyət tarixi və partiya arxivləri tədqiq edilməmiş qalırdı. Nəticədə arxiv işi tarixi də "ağ-qara" ləkəli problemlərlə müşayiət olunurdu.

Azərbaycanda dövlət arxiv xidmətinin əsaslı inkişaf dövrü hakimiyyətin sovet sosialist quruluşlu mərhələsinə təsadüf edir. Bu dövr Azərbaycanda Vahid Dövlət Arxiv Fondunun yaranması ideyasının əsasını qoyan sənədlə başlayır. Xalq Maarif Komissarlığı (XMK) tərəfindən hazırlanan sənəd Azərbaycan İnqilab Komitəsində N. Nərimanovun sədrliyi ilə keçirilən 6 dekabr tarixli iclasda müzakirə olunur və 13 dekabrda qəbul edilir.

15 dekabr 1920-ci ildə isə N.Nərimanov "Vahid Dövlət Arxiv Fondunun təşkil edilməsi və Xalq Maarif Komissarlığı yanında Mərkəzi Dövlət Arxivinin yaranması haqqında" dekret imzalayır.

13 dekabr dekretinə aparan yol da həmin qurumdan başlandı. Hələ həmin ilin may ayında arxiv işinin təşkili və xüsusi arxiv orqanının yaradılması ilə bağlı məsələ XMK-də, keçmiş abidələrin mühafizəsi üzrə yarımbölmənin iclasında müzakirə edilmiş və ali dövlət hakimiyyətinə - Azərbaycan İnqilab Komitəsinə bu barədə təklif ünvanlanmışdı. Dekretin layihəsini işləyən isə bölmənin tədris-mühazirə yarımbölmə müdiri, sonradan Azərbaycan Mərkəzi Dövlət Arxivinin ilk direktoru təyin edilmiş tarixçi-arxivçi A.L.Popov oldu.

Dekretin inkişaf etdirilməsi üçün XMK-nın qərarı ilə Əmək Muzeyi yanında Tarix-İnqilab Arxivi Vahid Dövlət Arxiv Fondunun tərkib hissəsi elan edilir. Yeni yaradılan qurum respublikada arxiv işi təmərküzləşənə qədər onun muxtariyyət hüquqlu filialı kimi Əmək Muzeyi yanında fəaliyyətini davam etdirir. Tarix-İnqilab Arxivinin bütün sənədləri Dövlət arxivinin qeydiyyatına verilir. Sonuncunun icazəsi olmadan sənədlərin çıxarılması və ya məhv edilməsi qadağan edilir.

Həmin dekret Azərbaycan SSR-də arxiv işi üzrə qapalı mühafizə sisteminin ləğvi, sənəd materiallarından istifadə və onların ümumxalq mülkiyyətinə çevrilməsini elan edir: 1920-ci il 28 aprel tarixinədək respublikada mövcud olmuş bütün idarə və ictimai təşkilatların arxivlərindən ibarət Vahid Dövlət Arxiv Fondu (VDAF) yaradılır və Azərbaycan SSR Xalq Maarif Komissarlığı yanında təşkil edilmiş Mərkəzi Dövlət Arxivinin tabeçiliyinə verilir.

Mərkəzi Dövlət Arxivi dövrünün "dişsiz" və zəif bir qurumu olan Xalq Maarif Komissarlığına bağlanmışdı. Arxiv məsələləri ilə komissarlığın Məktəbdənkənar şöbəsinin Muzey-ekskursiya (Muzekskurs) bölməsi məşğul olurdu. Bölmə 1920-ci ildə yaradılmışdı və tərkibinə tarix-arxeoqrafiya, tarix-arxeoloji, bədii-arxeoloji və kitabxana seksiyaları daxil edilmişdi. "İstiqlal" muzeyi, "Qədim abidələrin mühafizə komissiyası", "Əmək" muzeyi və "Doğma diyarı öyrənən Azərbaycan cəmiyyəti" də Muzekskursun tabeliyində idi.

Arxiv materiallarını məhv olmaqdan xilas edənlər arasında Muzekskursun işçisi, arxeoloq-alim Y.A.Paxomov (tarix-arxeoloji bölmənin keçmiş müdiri) xüsusilə fərqlənirdi. Tarix-arxeoloji bölmə elmi-tarixi əhəmiyyət kəsb edən arxiv sənədlərinin uçota alınması və arxivlərin yoxlanılması planını hazırlamış və 1920-ci ilin iyul ayından etibarən onu həyata keçirməyə başlamışdı.

Seksiya qarşısında hədəflər bunlar idi: arxeoqrafiya komissiyası yaratmaq, yazılı mənbələri öyrənmək məqsədilə respublika üzrə arxeoqrafik ekskursiya həyata keçirmək, qəza arxivlərini detallı şəkildə tədqiq etmək, yazılı mənbələri öyrənmək və nəşr etdirmək.

Lakin bütün bu irihəcmli və mürəkkəb işlər təbii olaraq, belə balaca ştat vahidini və qeyri-sabit struktura malik bir bölmənin gücünü aşırdı: nə hüquqi bazası vardı, nə də bir təsisat.

Azərbaycan Mərkəzi Dövlət Arxivinin yeni yaradılmış təsisat kimi tam formalaşdırılması prosesi nəhayət, 1921-ci ilin martında yekunlaşır. Lakin 1922-ci ilin avqust ayına qədər XMK-nın Akademik şöbəsinin tərkibində, Muzey-arxiv şöbəsinin yarımbölməsi qismində qalaraq, ali hakimiyyətə bağlı müstəqil idarə kimi fəaliyyət göstərə bilmir.

12 avqust 1922-ci ildə Azərbaycan MİK Rəyasət Heyətinin qərarı ilə arxiv işinin idarə olunması hüquqi cəhətdən MİK-in sərəncamına verilir, metodiki münasibətlər baxımından isə XMK-nın tabeliyində qalır.

Ali hakimiyyət orqanına tabeçilik Mərkəzi Dövlət Arxivinin nüfuzunu artırır və o, bir təsisat kimi hüquqi nöqteyi-nəzərdən möhkəmlənir: ilk növbədə gələcək fəaliyyəti üçün hüquqi baza müəyyənləşdirilir, rəsmi və ictimai olaraq tanınır, ən azı, şəhər arxivlərinin təqribi olsa da, qeydiyyatı həyata keçirilir, 5 qiymətli fond (Quberniya idarəsi, Şamaxı Məhkəmə Palatası, Qradonaçalnikin Dəftərxanası, Dağ-mədən idarəsi, Gəncə Əyalət Məhkəməsi) toplanılıb dövlət arxivinin mühafizəsinə alınır.

Beləliklə, 13 dekabr dekreti ilə Azərbaycanda arxiv xidmətinin təməli qoyuldu: bir sıra çatışmazlıqlara baxmayaraq, arxiv sənədlərinin dövlət mühafizəsi sisteminin təşkili əsas vəzifənin - yüzilliklərlə toplanmış sənəd xəzinəsinin qorunması məsələsinin həllini təmin etmiş oldu.

Bütün siyasi və hərbi kataklizmaların törətdiyi dağıntılara, sənədlərin bilərəkdən məhv edilməsi, oğurlanması, makulatura kampaniyaları və s. rəğmən Azərbaycanda Dövlət Arxiv Fondu təşkil edildi. Həmin fondun tərkibindəki yetərli sayda qiymətli arxiv mənbələrinə söykənərək, bu və ya digər tarixi proseslərə qiymət vermək və ölkə tarixinin müəyyən mərhələsinin öyrənilməsi mümkün oldu.

Azərbaycan Respublikasında həyata keçirilən dövlət arxiv xidməti tariximizin bir neçə dövrünün sənədlərini əks etdirən arxivlərin dövlət mühafizəxanalarında əbədi mühafizəsini təmin etdi.

Rejimin maraqlarına uyğunlaşdırılan arxivlərin idarə olunma ideyasının həyata keçirilməsi, müəyyən mənada həm də sənədlərin idarə olunması ideyasının da reallaşdırılmasına təkan verdi: sənəd axınının idarə olunmasının vahid bazası yaradıldı, onların təcrübi və elmi-tarixi əhəmiyyətlilik baxımından mühafizə müddəti tənzimləndi.

13 dekabr dekreti ilk dəfə olaraq arxiv işinin həqiqətən də ümumdövlət fəaliyyətinin xüsusi bir sahəsi olduğunu müəyyənləşdirdi: "dövlət arxiv fondu" anlayışı ilə arxivşünaslıq nəzəriyyəsinə yeni elmi düşüncə gətirdi.

*Yeganə Kamal CABBARLI,*
*Azərbaycan Respublikası Milli Arxiv İdarəsi Elmi-məlumat kitabxanasının müdiri*

# Dövlət qayğısından irəli gələn elmi töhfə

**Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) İ.Nəsimi adına Dilçilik İnstitutunun direktoru, akademik Möhsün Nağısoylunun "Nəsimi irsinin nəşrləri: problemlər və perspektivlər" adlı monoqrafiyası işıq üzü görüb. Elmi redaktoru akademik Kamal Abdullayev, redaktoru Könül Mirzəyeva olan bu kitabın əvvəlində ölkə Prezidenti İlham Əliyevin 2019-cu ildə İmadəddin Nəsiminin 650 illik yubileyinin keçirilməsi haqqında, eləcə də 2019-cu ilin "Nəsimi ili" elan edilməsi haqqında sərəncamları verilmişdir.**




Elə monoqrafiya da bu sərəncamların işığında araya-ərsəyə gəlmişdir. Belə ki, müəllif kitabın girişində bu məsələni xüsusi qeyd edir. Daha sonra yazır: "Nəsimi haqqında bu kitabı hazırlamağımda ustadım, Azərbaycanın ilk dilçi-mətnşünas mütəxəssislərindən biri olan, tanınmış nəsimişünas alim Cahangir Qəhrəmanov (ruhu şad olsun!) amilinin də təsiri oldu. Belə ki, mənim bir dilçi-mətnşünas kimi yetişməyimdə bu görkəmli alimin böyük xidməti olmuşdur. 1972-ci ilin əvvəllərində Azərbaycan Elmlər Akademiyası Respublika Əlyazmalar Fondunda (indiki M.Füzuli adına Əlyazmalar İnstitutu) yenicə işləməyə başlayarkən Cahangir Qəhrəmanovun Nəsimi əsərlərinin əlyazmaları üzərində necə həssaslıq və məsuliyyətlə işlədiyinin şahidi olmuşam".

Yazılanlardan o da aydın olur ki, Möhsün Nağısoylu ixtisasca əlyazmaşünas alimdir. O, ərəb qrafikasını və buna əsaslanan əski Azərbaycan yazısını, o cümlədən müxtəlif xəttatlıq nümunələrini orijinaldan oxumağı bacaran mütəxəssisdir və Nəsimi ilə bağlı yazdığı bu kitabını da ilkin əlyazma mənbələrindən yararlanaraq araya-ərsəyə gətirmişdir.

Nəsiminin qəzəlləri üzərində təhlillər aparan alim bildirir: "Şeirlərin müqayisəli təhlili üçün Nəsimi irsinin Cahangir Qəhrəmanov və Türkiyə nəsimişünası Hüseyn Ayan tərəfindən tərtib edilmiş tənqidi mətnləri, eləcə də şairin şeirlərinin Həmid Araslı, Əlyar Səfərli, Qəzənfər Paşayevin tərtibatı ilə çap olunmuş nəşrləri başlıca mənbə kimi götürülmüşdür".

"Nəsiminin Azərbaycan klassik poeziyasında və ədəbi dil tarixində yeri" adlı ilk fəsildə müəllif qüdrətli söz ustasından yenilikçi sənətkar kimi bəhs edir, ədəbi dilimizin zənginləşməsindəki xidmətlərinə toxunur, qəzəllərindəki rəvan təbii, axıcıllığı, sadəliyi, musiqililiyi belə əsaslandırır: "Nəsimi hürufilik məzmunu daşıyan qəzəllərinin bir qismini orta əsrlərdə müsəlman Şərqinin ictimai-siyasi həyatında başlıca yer tutan təsəvvüfün özəl göstəricilərindən biri olan səma məclislərində dərvişlər tərəfindən oxunmaq məqsədilə qələmə almışdır. Məhz bu səbəbdən də üsyankar şairin qəzəlləri müəyyən mənada dərvişlərə xas olan xüsusi bir melodiya və oynaq musiqi havaları üstündə köklənmişdir. Bütövlükdə götürdükdə, Nəsiminin qəzəlləri həm dilinin sadəliyi və axıcılığı, həm də saflığı və təmizliyi ilə seçilir ki, bunun da kökündə şairin xalq ruhuna, canlı ümumxalq danışıq dilinə söykənməsi, bu tükənməz qaynaqdan uğurla bəhrələnməsi dayanır".

Alim şairin qəzəlindən nümunə gətirib, onu dilçilik aspektindən şərh etməklə fikirlərini əsaslandırır. Bütün bunlar onu göstərir ki, müəllif tədqiq etdiyi sənətkarın dövrünü və əsərlərinin dilini dərindən öyrənib, əlaqəli şəkildə götürüb dəyərləndirir. Birinci fəslin "Klassik poeziyamızın və ədəbi dil tariximizin Nəsimi zirvəsi" adlı ilk paraqrafında müəllif dahi söz xiridarının poeziyamıza gətirdiyi yenilikləri və dilinin səciyyəvi xüsusiyyətlərini şərh edir.

"Nəsimi irsi: Azərbaycanda öyrənilməsi və mövcud problemlər" adlı ikinci paraqrafda şairin ədəbi irsinin araşdırılması və nəşri məsələlərindən bəhs edilir: "Monoqrafiyada diqqətə çatdırılır ki, tanınmış mətnşünas Salman Mümtaz 1926-cı ildə Azərbaycanda ilk dəfə Nəsiminin anadilli şeirlərini ərəb qrafikalı əski Azərbaycan əlifbası ilə nəşrə hazırlamışdır. 1962-ci ildə isə görkəmli ədəbiyyatşünas Mirzağa Quluzadə böyük şairin "Seçilmiş şeirləri"ni nəşr etdirmişdir. Müəllif qeyd edir ki, Nəsimi irsinin tədqiqi və nəşri sahəsində dönüş mərhələsinin bilavasitə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlıdır: "1969-cu ildə - Heydər Əliyevin Azərbaycana rəhbərlik erasının başlanğıcında böyük şairimiz Rəsul Rza Hələbdə olarkən Nəsiminin məzarını ziyarət etmiş və dövri mətbuatda geniş məlumat vermişdir. Ədəbiyyata, mədəni isrə böyük dəyər verən Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev bu məsələni diqqətdə saxlamış və 1970-ci ildə Suriyaya səfəri zamanı öz təşəbbüsü ilə Hələbə gedərək Nəsiminin məzarını ziyarət etmişdir.

Bütün bunların nəticəsi olaraq Ulu Öndərin təşəbbüsü və rəhbərliyi ilə 1973-cü ildə Nəsiminin 600 illik yubileyi nüfuzlu beynəlxalq təşkilat olan UNESKO-nun tədbirlər siyahısına daxil edilmiş və həmin il geniş şəkildə qeyd olunmuşdur. Bu möhtəşəm yubiley tədbirləri çərçivəsində 1973-cü ildə şairin həyatı və yaradıcılığı haqqında ilk monoqrafiya işıq üzü görmüşdür. Bundan əlavə, həmin il görkəmli dilçi-mətnşünas alim Cahangir Qəhrəmanov tərəfindən 5 əlyazma əsasında hazırlanmış Nəsiminin anadilli əsərlərinin elmi-tənqidi mətni 3 cilddə ərəb qrafikası ilə nəşr edilir".

Monoqrafiyada əqidəsi uğrunda şəhidlik zirvəsinə ucalan Nəsiminin özündən sonra xeyli məsləkdaşı, davamçısı olduğu, onların hətta Nəsimi təxəllüsü ilə şeirlər yazdığı vurğulanır. Müəllif onlardan ən məşhurunun XVII əsrdə yaşamış Qul Nəsimi olduğunu bildirir: "Görkəmli nəsimişünas C.Qəhrəmanovun yazdığı kimi, İ.Nəsiminin XVII əsrdən sonra köçürülmüş Divan nüsxələrində Qul Nəsiminin bir neçə şeiri də yer almışdır. Nəsimi Divanına başqa şairlərin şeirlərinin daxil edilməsinə ən yaxşı nümunə mütəfəkkir şairin guya ölüm ayağında yazdığı və bir beytində zahidin ikiüzlülüyü ilə bağlı məlum epizodun yer aldığı "Ağrımaz" şeiri sayıla bilər. Bu şeirin Nəsimiyə aid olmadığı çoxdan sübuta yetirilmişdir.

Akademik Möhsün Nağısoylu İ.Nəsimi əsərlərinin nəşri sahəsindəki problemlərdən söz açarkən, yol verilmiş nöqsanların, yanlışlıqların haradan qaynaqlanması kimi məsələləri də ətraflı araşdırmışdır. O, bir mətnşünas alim kimi təhlil müstəvisinə gətirdiyi qəzəlləri həm poetik baxımdan dəyərləndirir, həm dilçi alim kimi həmin əsərlərin Nəsimi Divanının leksikonuna uyğun gəlmədiyini izah edir, həm də Nəsimi dövrünün ictimai-siyasi hadisələrindən xəbərdar olub, şairin ölümünə Misir sultanının hökmü ilə fərman verildiyini, əvvəl dar ağacından asıldığını, sonra isə dərisinin soyulduğunu bildirərək, "Ağrımaz" qəzəlinin və bu məzmunda digər şeirlərin də Nəsiminin məsləkdaşları tərəfindən yazılmış olduğunu, sonradan səhvən Nəsimi Divanına daxil edildiyini əsaslandırır. Bütün bunlarla bərabər, Möhsün Nağısoylu şairin həyatı və ölümü ilə bağlı xalq arasında dolaşan rəvayətlərdən xəbərdar olub, məhz bu amilin də şairin Divanına daxil edilmiş nümunələrə, həmçinin həyatı ilə bağlı həqiqətlərə təsir göstərdiyini qeyd edir.

Odur ki, Möhsün müəllim görkəmli şərqşünas Yevgeni Bertelsin dediyi "hər hansı bir şairin əsərlərinin elmi-tənqidi mətni olmadan onun həyatı və dünyagörüşü, eləcə də yaradıcılığı haqqında dəqiq və düzgün fikir söyləmək çətindir" fikrinə rəğmən kitabının "Nəsimi irsinin nəşrləri: problemlər və perspektivlər" adlı ikinci fəslində də bir məntşünas alim kimi bu istiqamətdə mülahizələrini davam etdirmiş, elmi baxımdan prinsipial, əhəmiyyətli fikirlərini ortaya qoymuşdur.

Hesab edirəm ki, bu kitab hələ sovetlər zamanında Ulu Öndər Heydər Əliyevin nəsimişünaslığa göstərdiyi dövlət siyasətinin və dövlət qayğısının davamı olaraq ölkə prezidenti İlham Əliyev tərəfindən elan edilmiş "Nəsimi ili"nə və Nəsiminin 650 illik yubileyinə - nəsimişünaslığa akademik Möhsün Nağısoylu tərəfindən verilən ən gözəl elmi töhfədir.

***Şakir ALBALIYEV,***
***filologiya üzrə fəlsəfə doktoru, dosent,***
***AMEA-nın aparıcı elmi işçisi***

# Azərbaycan ilk dəfə polo üzrə Avropa çempionatına evsahibliyi edəcək

## Sentyabrın 10-dan 20-dək Bakıda keçiriləcək 13-cü Avropa Çempionatında iştirak edəcək komandalar müəyyənləşib

Prezident İlham Əliyevin atçılıq idmanının inkişafına ali diqqət və qayğısı sayəsində qədim tarixə malik atçılıq mədəniyyətimizin dünya miqyasında təbliği sahəsində son illərdə önəmli nəticələr əldə olunub və idmançılarımız beynəlxalq səviyyədə böyük nüfuz qazanıblar.



Azərbaycan Respublikası Atçılıq Federasiyasından (ARAF) bildiriblər ki, 2018-ci ilin sentyabrında İtaliyanın Florensiya şəhərində keçirilən sonuncu Avropa çempionatında milli komandamızın yalnız final qarşılaşmasında ev sahiblərinə uduzaraq turnirin gümüş medallarına sahib olması atçılıq idmanı mütəxəssisləri tərəfindən mühüm nailiyyət kimi qiymətləndirilib. Üç il əvvəl Dünya Polo Federasiyasının Baş Assambleyasında 2020-ci ildə çempionatın məhz Bakıda keçirilməsi barədə qərarın qəbul edilməsi Azərbaycanın idmanın bu növü üzrə qazandığı böyük nüfuzun daha bir ifadəsi olub.





Sentyabrın 10-dan 20-dək Bakıda təşkil olunacaq polo üzrə növbəti - 13-cü Avropa Çempionatında iştirak edəcək komandalar reytinq xallarına əsasən artıq müəyyənləşiblər. Avropanın ən mötəbər tədbirlərindən sayılan bu çempionatda 8 ən yaxşı komanda iştirak edəcək. Çempionata evsahibliyi edəcək Azərbaycan və hazırkı Avropa çempionu İtaliya turnirdə birbaşa iştirak hüququ qazanıblar. Qitə birinciliyinin digər iştirakçıları isə Fransa, İngiltərə, İspaniya, İsveçrə, Niderland və Avstriya komandaları olacaqlar. Bu komandalar Avropanın ən titullu seçmələridir. Belə ki, İngiltərə 6, Fransa və İtaliya 2 dəfə Avropa çempionu adını qazanıblar. İspaniya və İrlandiya yığmaları isə bir dəfə Avropa birinciliyinin ən yüksək pilləsinə yüksəliblər.

ARAF-ın təşkilatçılığı ilə Bakıda keçiriləcək 13-cü Avropa Çempionatında iştirak edəcək milli komandamızın heyəti də müəyyənləşib. Komandamız çempionatdan qabaq ilk təlim-məşq toplanışını keçirdiyi Argentinadan yanvarda qayıdıb. Martda yenidən Argentinada start götürəcək növbəti təlim-məşq toplanışı 90 gün davam edəcək.

Polo üzrə 13-cü Avropa Çempionatının keçiriləcəyi Binə Atçılıq Mərkəzinin ərazisində hazırda ümumi sahəsi 7 hektardan çox olan təxminən 8 futbol stadionu böyüklüyündə meydançanın inşasına başlanılıb. Bu istiqamətdə işlər sürətlə davam etdirilir.




# Energetika Nazirliyində vətəndaş qəbulu keçirilib

Energetika naziri Pərviz Şahbazov nazirlikdə növbəti dəfə vətəndaş qəbulu keçirib.

Energetika Nazirliyindən bildirilib ki, qəbulda səsləndirilən müraciət nazir tərəfindən dinlənilib, qaldırılan məsələlərin qanunvericiliyin tələblərinə uyğun həll edilməsi üçün nazirliyin aidiyyəti struktur bölmələrinə müvafiq tapşırıqlar verilib.

Qeyd edək ki, Energetika Nazirliyi tərəfindən vətəndaş müraciətlərinə baxılması işinin səmərəli təşkili məqsədilə nazir, nazir müavinləri və digər rəhbər vəzifəli şəxslərin 2020-ci il üzrə vətəndaş qəbulu qrafiki nazirliyin saytında yerləşdirilib.

***AZƏRTAC***

# Tələbələrin "Qış məktəbi"

Azərbaycan İlahiyyat İnstitutunun (AİI) Qəbələ rayonunda "Din, mədəniyyət və cəmiyyət-2" mövzusunda təşkil etdiyi "Qış məktəbi" öz işinə başlayıb. İnstitutun kollektivi əvvəlcə şəhərin mərkəzində ucaldılan Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə tər çiçəklər düzərək, dahi rəhbərin xatirəsini ehtiramla yad edib.






"Qış məktəbi"nin açılış mərasimində çıxış edən AİI-nin rektoru vəzifəsini müvəqqəti icra edən Aqil Şirinov tələbələrə uğurlar arzulayıb. Təşkil edilən proqramın tələbələr üçün böyük şans olduğunu nəzərə çatdıran A.Şirinov onlara bu imkandan maksimum yararlanmağı tövsiyə edib. O, "Qış məktəbi"nin əhəmiyyətindən bəhs edərək, burada yaşayan udilərlə yaxından ünsiyyətin, eyni zamanda, bu tarixi məkanda mövcud olan qədim abidələrimizlə tanışlığın xüsusi səciyyə daşıdığını nəzərə çatdırıb.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov ölkəmizdə mövcud multikultural mühit barədə söhbət açıb. İnstitutun Qəbələdə təşkil etdiyi "Qış məktəbi"nin tələbələrin mövcud tolerant və multikultural mühitlə yaxından tanışlığı baxımından böyük əhəmiyyətə malik olduğunu qeyd edib. G.İsmayılov gənclərə bu imkanlardan maksimum yararlanmağı tövsiyə edib.

Alban-Udi Xristian İcmasının sədri Robert Mobili tələbələri Qəbələnin Nic kəndində görməkdən məmnunluğunu ifadə edib. O, qədim xalqlardan biri olan udinlər üçün multikultural ölkəmizdə yaradılan hərtərəfli şəraitdən bəhs edib. R.Mobili bildirib ki, Azərbaycan İlahiyyat İnstitutu istər islam dini, istərsə də digər dünya dinlərini dərindən bilən, dövlətçiliyimizin keşiyində duran yüksək ixtisaslı dinşünas və islamşünas kadrlar hazırlayaraq təkcə ölkəmizdə deyil, bütün dünyada tanınan ali təhsil müəssisələrindən birinə çevriləcək.

DQİDK-nin Şəki bölgəsi üzrə şöbə müdiri vəzifəsini icra edən Taleh Abdullayev bildirib ki, təşkil edilən "Qış məktəbi" ekskursiya və seminarların tələbələrin biliklərinin artırılmasında, dünyagörüşlərinin zənginləşdirilməsində xüsusi əhəmiyyətə malikdir.

"Qış məktəbi"nin birinci günü seminar və ziyarətlərlə davam edib.

Seminarda "Dövlət, cəmiyyət və din" mövzusunda çıxış edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov bildirib ki, Azərbaycan xalqının əsrlər boyu mövcud olan tolerantlıq və multikulturalizm ənənəsi dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilib. Sədr müavininin sözlərinə görə, Prezident İlham Əliyev hər zaman Azərbaycançılıq ideologiyasının inkişafını və milli-mənəvi dəyərlərin qorunmasını diqqət mərkəzində saxlayır.

Sədr müavini çıxışı zamanı milli və dini dəyərlərimizin mahiyyətindən bəhs edib, bu dəyərlərin qorunmasının vacibliyinə toxunub. O vurğulayıb ki, yad dini ideologiyaların yayılması cəhdlərinin qarşısının alınması gənclər arasında milli-mənəvi, xüsusilə dini dəyərlərin təbliğinin doğru aparılmasından asılıdır.

Daha sonra tələbələr Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə qəhrəmanlıqla həlak olmuş vətəndaşların xatirəsini əbədiləşdirmək məqsədilə Qəbələ şəhərində əsaslı təmir işləri aparılmış və yenidən qurulmuş Şəhidlər xiyabanını ziyarət ediblər.

Qəbələ Rayon Heydər Əliyev Mərkəzini ziyarət zamanı tələbələrə geniş məlumat verilib.

Mərkəzdə Bacarıqlı əllər dərnəyi, kompüter kursları, musiqi dərnəyi, rəsm studiyası və elektron kitabxananın fəaliyyət göstərildiyi diqqətə çatdırılıb.

Qeyd edək ki, fevralın 7-nə qədər davam edəcək "Qış məktəbi"nin təşkilinin əsas məqsədi tələbələrin dünyagörüşünün zənginləşdirilməsi, onların ölkəmizdə mövcud multikultural, tolerant mühitin canlı şahidi olmalarıdır.

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

# Distant təhsil

## Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın ideyası əsasında həyata keçirilən bu layihə uğurla tətbiq olunur

Müasir texnologiyanın inkişafı respublikanın təhsil sisteminə də müsbət təsir göstərmişdir. Bunun nəticəsidir ki, distant tədris sistemi hazırda aktiv istifadə edilməkdədir. Distant təhsil öyrədən və öyrənən arasında əlaqəni kompüter şəbəkələri vasitəsilə internet üzərindən operativ, müntəzəm dialoq, əks əlaqə əsasında uzaq məsafədən həyata keçirir.

Distant təhsil prosesində tədris metodik kompleksdən: kompüter, təqdimat videoları, multimedia texnikası və s. kimi təlim vasitələrindən istifadə olunur. Məsafəli təhsil şagirdilə müəllim fiziki olaraq bir yerdə olmasa da, hər iki tərəfin canlı ünsiyyətini təşkil edən texnologiyadır. Ölkəmizdə distant təhsil yeni olsa da, ictimaiyyət bu sistemin zəruriliyini anlayır, qabaqcıl təhsil müəssisələri və peşəkar müəllimlər tədris prosesində onu tətbiq edirlər.

Distant təhsil ilkin olaraq dünyanın bəzi inkişaf etmiş ölkələrində tətbiq olunmuş və bu yöndə müəyyən irəliləyişlər əldə edilmişdir. 19 iyun 2009-cu ildən "Təhsil haqqında" qanuna görə, Azərbaycanda təhsil almanın formalarından biri də distant təhsildir. Distant təhsilin tətbiqi üçün məktəblərin internetə çıxışı təmin edilməli, təhsil alanın evində müvafiq şərait, avadanlıq olmalıdır. Distant təhsil tədris prosesini internet üzərindən həyata keçirərək virtual şəbəkə vasitəsilə insanların elektron təhsil almasına şərait yaradır. Şagird təhsilindən və müəllimindən ayrılsa da, bu sistem vasitəsilə vaxt itirmədən telekommunikasiya vasitələri üzərindən öz təhsilini istədiyi vaxt davam etdirə bilir.

"Heç kəs təhsilsiz qalmasın!" Bu, təhsil sisteminin baş devizidir. Distant təhsil orta ümumtəhsil məktəblərində və ümumiyyətlə, tədris ocaqlarında çoxdan tətbiq olunsa da, səhiyyə müəssisələrində bu təlim texnologiyasına müraciət yenidir. Məlumdur ki, məktəbəqədər və məktəbyaşlı uşaqların səhhətində yaranan problemlərə, xəstəliklərə görə onlar təhsillərini məktəbdə davam etdirə bilmirlər, bəzilərinin vəziyyəti kəskin olduğundan, ümumiyyətlə, məktəbə gedə bilmir və yaxud təhsillərini yarımçıq qoymağa məcbur olurlar. Buna görə də, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın ideyası əsasında Respublika Təhsil Nazirliyinin dəstəyi ilə səhiyyə müəssisələrində tətbiq edilən "Müalicə alan uşaqların Distant Təhsil" layihəsi bu yöndə atılmış ən gözəl addımlardan biridir. Bu layihə Milli Hematologiya və Transfuziologiya Mərkəzində sağlamlıq imkanları məhdud, xüsusi qayğıya ehtiyacı olan şagirdlərə, burada müalicə alan bağça yaş dövrü, məktəbəqədər və məktəbyaşlı uşaqlar üçün distant təhsil almaq imkanı yaradır. Ölkənin Milli Hematologiya və Transfuziologiya Mərkəzində, eləcə də Talassemiya Mərkəzində bu layihə əsasında səhhətində problem yaranan uşaqlar müalicə almaqla burada olduğu müddət ərzində öz təhsillərindən geri qalmır və məktəbdə keçdiyi mövzudan başlayaraq dərslərini davam etdirə bilirlər.

Bilik səviyyəsindən asılı olmayaraq, şagirdlərə mövzular üzrə hazırlanmış xüsusi təqdimat dərslərindən ibarət təlimlər də keçirilir. Şagird bunun sayəsində həm keçdiyi mövzunu təkrarlayır, həm də yeni mövzuya dair bilgilər əldə edir. Xüsusi hazırlanmış təqdimat videoları uşaqların mövzuları daha yaxşı başa düşməsinə kömək edir, videoçarxlar vasitəsilə onların dərsi daha asan mənimsəmələrinə şərait yaradır.

Xəstəliyinə görə heç vaxt məktəbə gedə bilməyən uşağa isə burada sıfırdan təhsil verilir, müəyyən olunmuş proqram əsasında dərs deyilir. Distant təhsil, həmçinin şagirdlərin cəmiyyətdən təcrid olunmalarının qarşısını alır. Onlarda özünə və gələcəyə inam hissi, yeni ideyalar formalaşdırır. Bundan əlavə, bağçayaşlı uşaqlara gərəkli bilgilər verilir, məktəbəqədər yaşında olan (3-5 yaş) uşaqlara nitq vərdişləri aşılanır. Dərs prosesi xüsusi hazırlanmış təqdimat və videolar vasitəsilə davam etdirilir.

Distant təhsildə şagirdlər elektron materiallar, elektron dərslik, şagirdlərin yaş səviyyələrinə uyğun formada hazırlanmış tədris materialları ilə təmin olunur, dərslər yüksək əyanilik prinsipi çərçivəsində həyata keçilir. Bu zaman çeviklik, modulluq, müəllim qabiliyyəti, təhsilin keyfiyyətinə xüsusi nəzarət, şagird ilə qurulan dialoq, müasir texnologiyalardan istifadəyə yararlı ənənəvi resurslar təhsilin xarakterik xüsusiyyətləri hesab edilir.

Distant təhsil prosesində keçilən ambulator dərslər xüsusilə diqqətəlayiqdir. Müəllimlərini görən kimi uşaqlarda yaranan dərs öyrənmək həvəsi, təhsilə olan maraqları, onların hər birinin gələcəyinə səpilmiş toxum, dünyanın bəlkə də ən böyük sevincidir. Burada hər bir müəllim uşaqlara xüsusi yanaşma metodundan istifadə edir. Hər dərsin sonunda şagirdin qiymətləndirilməsi onların növbəti dərsə daha həvəslə hazırlaşmalarına stimul yaradır. Valideynlər tərəfindən bu xeyirxah işin sevilməsi, bu layihəyə olan inam və rəğbətləri hamımızın ürəyincədir.

Tədris olunan Azərbaycan dili və ədəbiyyat, biologiya, həyat bilgisi, musiqi, riyaziyyat, coğrafiya, tarix, ingilis dili, texnologiya, təsviri incəsənət kimi fənlər üzrə xüsusi müəllimlər çalışır. Musiqi dərslərində Azərbaycanda ilk dəfə olaraq tətbiq olunan musiqi terapiyasından istifadə olunur. Psixoloq uşaqlarla xüsusi formada məşğul olaraq təlimin və tərbiyənin psixoloji qanunauyğunluqlarını dərindən yiyələnməkdə onlara kömək göstərir. Hər bir müəllim hazırlanmış dərs proqramı üzrə öz fənnini distant olaraq tədris edir.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyeva tez-tez Milli Hematologiya və Transfuziologiya Mərkəzinə gəlir, Mərkəzin fəaliyyəti və Talassemiya Mərkəzində aparılan müayinə və müalicə prosesi ilə yaxından tanış olur, distant təhsil prosesinə cəlb olunmuş uşaqlarla palatalarda görüşür, dərs prosesləri ilə maraqlanır və bu sahədə əlindən gələn köməyi əsirgəmir.

Leyla xanım mərkəzə hər gəlişində qayğıya, yardıma ehtiyacı olanlara xüsusi diqqət yetirir, uşaqların bütün istəklərini yerinə yetirir. İnanırıq ki, bu cür gözəl layihələr sayəsində ölkəmizin heç bir vətəndaşı, şagirdi ən çətin anda belə, köməksiz və təhsilsiz qalmayacaq.

***Könül HACIYEVA,***
***"Distant Bilik" Mərkəzinin müəllimi***

# “Azərenerji” Bakıdakı bəzi yarımstansiyaları yenidən qurur

“Azərenerji” ASC-nin mətbuat xidmətindən verilən məlumata görə, cəmiyyət “Reabilitasiya Proqramına” uyğun olaraq Bakı və Abşeron yarımadasının elektrik təchizatında müstəsna rol oynayan 220 və 110 kilovoltluq sistem əhəmiyyətli əsas yarımstansiyaları yenidən qurur və işlər enerji təchizatında fasilə yaranmaması üçün xüsusi rejimdə, yarımstansiyanın fəaliyyəti dayandırılmadan həyata keçirilir.



Artıq Səbail rayonunun Badamdar qəsəbəsində yerləşən 220 kV-luq “Müşfiq” və Sabunçu rayonunun Zabrat qəsəbəsində yerləşən 110 kV-luq “Zabrat” yarımstansiyaları yenidən qurularaq istismara verilib.

1968-ci ildə tikilən 110 kV-luq “8-ci kilometr” və 1976-cı ildə istismara verilən Sumqayıtdakı 110 kV-luq “Sulfanol” yarımstansiyalarında yenidənqurma işləri yekunlaşıb.

Həmçinin 1953-cü ildə tikildiyindən istismar müddətini bir neçə dəfə keçən açıq tipli 110 kV-luq “Dübəndi” yarımstansiyası qapalı tipə keçirilərək tam yenidən qurulub.

1953-cü ildə tikilən və istismar müddətini bitirən 220 kilovoltluq “Xırdalan”, 1968-ci ildə istismara verilən 110 kV-luq “Əhmədli” və 1949-cu ildən istismar olunan 110 kV-luq “Maştağa” yarımstansiyalarında isə əsaslı tikinti və yenidənqurma işləri hazırda da davam edir.

Bütün yarımstansiyalarda rele mühafizəsi, avtomatika və idarəetmə sistemləri ilə komplektləşdirilmiş idarəetmə mərkəzləri tikilir. Nəticədə güc çatışmazlığı aradan qaldırılmaqla yanaşı, etibarlıq və dayanıqlıq təmin edilir.

Nəzərinizə çatdıraq ki, qəzaların qarşısının alınması, qəza rejimində yükün bir yarımstansiyadan digər yarımstansiyanın üzərinə köçürülməsi, itkilərin aradan qaldırılması, artan tələbatın qarşılanması, ən əsası isə istehlakçıların daha keyfiyyətli və fasiləsiz elektrik enerjisi ilə təmin edilməsi üçün yarımstansiyaların yenidən qurulması olduqca əhəmiyyətlidir.

Qeyd edək ki, “Azərenerji” Açıq Səhmdar Cəmiyyəti ümumilikdə 20-dək yarımstansiyada yenidənqurma, təmir və bərpa işləri həyata keçirir, avadanlıqlar, ən əsası isə transformatorlar dəyişdirilərək yarımstansiyaların gücü artırılır.


## “Təmiz Şəhər” Açıq Səhmdar Cəmiyyəti
## *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir: Laborator analizlərin aparılması işlərinin satın alınması

Tender iştirakçıları **https://www.etender.gov.az** dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olmaqla tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Təkliflərin qiymətləndirilməsində analoji işlərdə təcrübəsi, maliyyə vəziyyəti, aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi üçün zəruri potensial meyarlara üstünlük veriləcəkdir.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı - 200 manat**

**Benefisiarın adı: Dövlət Xəzinədarlığı Agentliyi**
**Hesab nömrəsi: AZ07CTRE00000000000004587901**
**SWIFT: CTREAZ22**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**Müxbir hesab: AZ41NABZ01360100000000003944**
**Xəzinə hesab kitabın (XHK) nömrəsi: 4587901**
**Fond: 7**
**İqtisadi təsnifat kodu: 142330**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderlə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla ) **25 fevral 2020-ci il saat 16:00-a** qədər, tender təklifi və bank təminatını isə **04 mart 2020-ci il saat 16:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **05 mart 2020-ci il saat 16:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

Qeyd: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***


# 50 kiloqramdan çox narkotik vasitənin ölkə ərazisinə gətirilməsinin qarşısı alınıb

Son dövrdə Azərbaycan-İran dövlət sərhədində külli miqdarda narkotik vasitənin ölkə ərazisinə gətirilməsinin qarşısı alınıb, təqsirkar şəxslər müəyyənləşdirilərək cinayət məsuliyyətinə cəlb olunub.

Dövlət Sərhəd Xidmətinin mətbuat mərkəzindən bildiriblər ki, bu nəticələr dövlət sərhədinin fiziki və texniki yolla mühafizəsinin təkmilləşdirilməsi, bilavasitə dövlət sərhəd xəttində müasir müşahidə və aşkaretmə avadanlıqlarının tətbiqi, əməliyyat-axtarış fəaliyyətinin genişləndirilməsi, İran İslam Respublikasının sərhəd qoşunları ilə qarşılıqlı faydalı əməkdaşlığın daha da inkişaf etdirilməsi sayəsində əldə olunub.

Dövlət sərhədinin etibarlı mühafizəsi istiqamətində həyata keçirilmiş əməliyyat-axtarış və qoşun tədbirləri nəticəsində cari il yanvarın 1-dən etibarən 5 halda ümumi çəkisi 50 kiloqram 230 qram və 8500 ədəd həb şəklində narkotik vasitənin və psixotrop maddələrin qaçaqmal yolu ilə ölkə ərazisinə gətirilməsinin qarşısı alınıb. Eləcə də dörd nəfər Azərbaycan və 2 nəfər İran vətəndaşı saxlanılaraq cinayət məsuliyyətinə cəlb olunub.



Təkcə son on gün ərzində Azərbaycan-İran dövlət sərhədində üç halda ölkə ərazisinə narkotik vasitələrin gətirilməsinin qarşısı alınıb. Yanvarın 26-da “Horadiz” sərhəd dəstəsinin xidməti ərazisində İmişli rayonunun Bəhrəmtəpə qəsəbəsi yaxınlığındakı sərhəd zastavasının xidməti sahəsində İran İslam Respublikasından Azərbaycan Respublikasına doğru hərəkət edən bir nəfər naməlum şəxs tərəfindən dövlət sərhədinin pozulmasının qarşısı alınıb, qaçaqmalçı əlindəkiləri ataraq geri qaçıb. Həmin ərazi dərhal qapadılaraq axtarış tədbirləri keçirilib. Nəticədə kisənin içərisində 1,9 kiloqram narkotik vasitə aşkarlanaraq götürülüb.

Fevralın 1-də “Horadiz” sərhəd dəstəsinin xidməti ərazisində İmişli rayonunun Aranlı kəndi yaxınlığındakı sərhəd zastavasının xidməti sahəsində İran İslam Respublikasından Azərbaycana doğru hərəkət edən 2 nəfər naməlum şəxs sərhəd naryadı tərəfindən müşahidə edilib. Sərhəd naryadının “Dayan!” əmrinə tabe olmayan sərhəd pozucularına qarşı silahdan havaya xəbərdarlıq məqsədilə atəş açılıb və sərhəd pozucuları əllərindəki çanta ilə qaçmaq istəyərkən saxlanılıblar. Saxlanılan şəxslərin İran vətəndaşları 1980-ci il təvəllüdlü Rza Zend Xanhüseyn və 1986-cı il təvəllüdlü Muradi Talıb Bayram olması müəyyənləşdirilib. Sərhəd pozucularının üzərinə baxış zamanı ümumi çəkisi 9 kiloqram 485 qram olan narkotik vasitə və 823 ədəd həb, həmçinin SUR-2608 markalı tapança, 1 daraq, 6 patron aşkarlanaraq götürülüb.

Fevralın 2-də “Göytəpə” sərhəd dəstəsinin xidməti ərazisində Cəlilabad rayonunun Məlikqasımlı kəndi yaxınlığındakı sərhəd zastavasının xidməti sahəsində İrandan Azərbaycana doğru hərəkət edən iki nəfər naməlum şəxs tərəfindən dövlət sərhədinin pozulmasının qarşısı alınıb. Sərhəd pozucuları əllərindəki çantanı əraziyə ataraq geri qaçıblar. Ərazidə axtarış tədbirləri keçirilib, 2 çantanın içərisində 16 kiloqram 200 qram narkotik vasitə və 5377 həb aşkarlanaraq götürülüb.

Sərhədin pozulması hallarının hər biri barədə sərhəd nümayəndəliyi xətti ilə İran sərhədçiləri müvafiq qaydada məlumatlandırılıb, bu kimi hallara qarşı birgə mübarizə tədbirlərinin gücləndirilməsi razılaşdırılıb. Faktlar üzrə əməliyyat-istintaq tədbirləri davam etdirilir.

**Emil Xanlar oğlu Məmmədova məxsus Əmək kitabçası (0068549) itdiyi üçün etibarsız sayılır.**

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti


## Agricultural Competitiveness Improvement Project
## Loan No 8286-Az
## AWARD NOTICE

**04.02.2020**

### Procurement of Information technology equipment and software - Support to inspection and state control by provision of instruments

This notice includes findings of bid evaluation for the bidding process held for the procurement of goods for Information technology equipment and software - for Azerbaijan Food Safety Agency.

The Invitation for Bids was advertised in www.akia.gov.az and newspaper Azerbaijan, on September 17, 2019 and deadline for submission of bids was specified as October 21, 2019, 15:00 local Baku time.

Eleven (11) companies applied to the PMU for obtaining of the bidding documents:

| No | Name of Company | Country origin | Date of apply |
|---|---|---|---|
| 1 | “CESA Bilishim San. Ve Tic. Ltd. Shti” | Turkey | 19.09.2019 |
| 2 | “Softline International” LLC | Azerbaijan | 23.09.2019 |
| 3 | “ELITE-AZ TECHNOLOGY” LLC | Azerbaijan | 23.09.2019 |
| 4 | “Bakinity Distribution” LLC | Azerbaijan | 26.09.2019 |
| 5 | “Caspel” LLC | Azerbaijan | 26.09.2019 |
| 6 | “Infinitech” LLC | Azerbaijan | 26.09.2019 |
| 7 | “Bestcomp Group” LLC | Azerbaijan | 30.09.2019 |
| 8 | “Innovativ Layiheler Merkezi” LLC | Azerbaijan | 04.10.2019 |
| 9 | “Araznet” LLC | Azerbaijan | 04.10.2019 |
| 10 | “Rima Elektronik Bilishim ve Guv.” | Turkey | 11.10.2019 |
| 11 | “ISBO GROUP”LLC | Azerbaijan | 11.10..2019 |

Only 5 (five) Companies submitted their bids by the deadline, October 21, 2019 by 15:00. Read-out prices were as follows:

| Name | Currency | Amount(s) (VAT included. DDP terms) | Comments on Bid opening |
|---|---|---|---|
| “Innovativ Layiheler Merkezi” LLC (Azerbaijan) | AZN | 532,535.18 | AZN 10,000.00 |
| “Rima Elektronik Bilishim ve Guv.” (Turkey) | AZN | 379,140.00 | USD 6,200.00 |
| “Softline International” LLC (Azerbaijan) | AZN | 332,926.25 | AZN 10,000.00 |
| “Araznet” LLC (Azerbaijan) | AZN | 546,406.32 | AZN 10,000.00 |
| “Bestcomp Group” LLC | AZN | 252,780.19 | AZN 10,000.00 |

Considering the detailed check results, the Evaluation Committee issued the recommendation to award the Contract to substantially responsive and lowest evaluated Bidder **“Softline International” LLC(Azerbaijan) with the Contract amount 332,926.25 (three hundred thirty two thousands nine hundred twenty six United States Dollars and 25 cents)** included VAT. Terms of supply is DDP.

**Contract was signed on February 04, 2020.**



## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi inzibati binada quraşdırılmış "Mitsubishi" markalı 3 (üç) ədəd sərnişin liftinə texniki dəstəyin göstərilməsi xidmətinin kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir.

**Maraqlanan təşkilatlar 596-44-09 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.**

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 07 fevral 2020-ci il saat 15:00-dək qəbul olunur.

***Tender komissiyası***


# Dənizdə köməksiz vəziyyətdə qalan balıqçılar xilas edilib

Dövlət Sərhəd Xidmətinin (DSX) Sahil Mühafizəsi Xəzər dənizinə çıxan üzmə vasitələrinə nəzarətin təşkili və xilasetmə tədbirlərinin həyata keçirilməsini uğurla davam etdirir.

Fevralın 3-də saat 12:15 radələrində Xəzər dənizinin cənub istiqamətində dövlət sərhədinin mühafizəsində olan “Tufan” tipli sərhəd gözətçi gəmisi Kürdili adasının cənubunda Lənkəran rayonu Nərimanabad qəsəbəsindən 8,1 mil məsafədə iki nəfər heyət üzvünün “Kömək edin!” işarəsini nümayiş etdirən hərəkətsiz balıqçı qayığı müşahidə edib. Sərhəd gözətçi gəmisinin fırtınalı hava şəraitində keçirdiyi xilasetmə tədbirləri nəticəsində texniki nasazlıq səbəbindən dənizdə qalmış “BA-5142” bort nömrəli “Yamaha-40” mühərrikli balıqçı qayığı yedəyə alınıb. Qayığın heyəti saat 15:10 radələrində xilas edilərək Nərimanabad qəsəbəsi istiqamətində sahilə çıxarılıb.

Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçuları tərəfindən xilas edilmiş şəxslərin Lənkəran rayonunun Nərimanabad qəsəbə sakinləri 1977-ci il təvəllüdlü Süleymanov Sədrəddin Yediyar oğlu və 1987-ci il təvəllüdlü Əsgərov Nail Namiq oğlu olmaları müəyyən edilib.

## ALLAH RƏHMƏT ELƏSİN!

Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev, Elman Məmmədov və İmammerdi İsmayılov Türkiyə Cümhuriyyətinin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Erkan Özarala atası

**ZƏKİ BƏYİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

“Azərbaycan” qəzetinin kollektivi Türkiyə Cümhuriyyətinin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Erkan Özarala atası

**ZƏKİ BƏYİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin rəhbərliyi Əli və Məhəmməd Abdullayevlərə ataları, meliorasiya və su təsərrüfatı sahəsinin veteranı

**İZZƏT ABDULLAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, professor Ədalət Muradov və universitetin kollektivi Azərbaycan Texniki Universitetinin rektoru, professor Vilayət Vəliyevə qardaşı

**VƏLİ MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar nazirinin birinci müavini Əli Abdullayevə atası

**İZZƏT ABDULLAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəhbərliyi və kollektivi Aparatın əməkdaşı Gülnar İbrahimovaya anası

**SƏİDƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

“Azərenerji” ASC-nin prezidenti Baba Rzayev Türkiyə Cümhuriyyətinin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Erkan Özarala atası

**ZƏKİ BƏYİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Texniki Universitetinin professor-müəllim heyəti və kollektivi universitetin rektoru, professor Vilayət Vəliyevə qardaşı

**VƏLİ MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov və professor-müəllim heyəti Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar nazirinin birinci müavini Əli Abdullayevə atası

**İZZƏT ABDULLAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov və professor-müəllim heyəti Azərbaycan Texniki Universitetinin rektoru, professor Vilayət Vəliyevə qardaşı

**VƏLİ MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Təhsil Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Texniki Universitetinin rektoru Vilayət Vəliyevə qardaşı

**VƏLİ ƏLƏKBƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

İsmayıllıdan Mirdaməd Sadıqov Məhəmməd və Əli Abdullayevlərə ataları

**İZZƏT MÜZƏFFƏR OĞLU ABDULLAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Göyçaydan Mehdi Səlimzadə Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar nazirinin birinci müavini Əli Abdullayevə atası

**İZZƏT MÜZƏFFƏR OĞLU ABDULLAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutunun rəhbərliyi və kollektivi Azərbaycan Texniki Universitetinin rektoru Vilayət Vəliyevə qardaşı

**VƏLİ ƏLƏKBƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı şəhəri Suraxanı Rayon Məhkəməsinin kollektivi məhkəmənin hakimi Anar İbrahimova anası

**SƏİDƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


Baş redaktorun birinci müavini
Amil NOVRUZOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 6975
Sifariş 392
Qiyməti 40 qəpik